

# Ruhun Həyatı Üzərində Düşüncələr



Ruhi İnstitutu





Kitab 1

# Ruhun Həyatı Üzərində Düşüncələr

Ruhi İnstitutu

Silsilədəki kitablar:

Aşağıda Ruhi İnstitutunun tərtib etdiyi silsilədəki mövcud kitabların adları verilir. Kitabların gənc və böyük insanların öz icmalarına xidmət etmə qabiliyyətlərini yüksəltmək məqsədilə sistematik səylərdə əsas kurslar ardıcıllığı kimi istifadə olunması nəzərdə tutulur. Ruhi institutu Bəhai uşaq sinifləri müəllimlərinin təlimi üçün silsilədə üçüncü kitabdan ayrılan bir sıra kurslar dəstini, həmçinin yeniyetmə qruplarının animatorlarının yetişdirilməsi üçün Kitab 5-dən ayrılmış digər dəst də hazırlamaqdadır. Bunlar da aşağıdakı siyahıda verilir. Qeyd etmək lazımdır ki, fəaliyyət meydanında təcrübə toplandıqca bu siyahıda dəyişikliklər ola bilər və hazırda hazırlanmaqda olan tədris proqramının elementləri geniş şəkildə təqdim edilə biləcəyi mərhələyə çatdıqda yeni kitabların adları əlavə olunacaqdır.

| | |
|---|---|
| Kitab 1 | *Ruhun Həyatı Üzərində Düşüncələr* |
| Kitab 2 | *Xidmətə Qalxmaq* |
| Kitab 3 | *Uşaq Dərslərinin Tədrisi, 1-ci sinif* |
| | *Uşaq Siniflərində Tədris, 2-ci sinif (budaq kurs)* |
| | *Uşaq Siniflərində Tədris, 3-cü sinif (budaq kurs)* |
| | *Uşaq Siniflərində Tədris, 4-cü sinif (budaq kurs)* |
| Kitab 4 | *Qoşa Məzhərlər* |
| Kitab 5 | *Yeniyetmələrin Güclərinin Azad Edilməsi* |
| | *İlkin İmpuls: Kitab 5-in birinci budaq kursu* |
| | *Genişlənən çevrə: Kitab 5-in ikinci budaq kursu* |
| Kitab 6 | *Əmrin Təbliği* |
| Kitab 7 | *Xidmət Yolunda Birgə Addımlamaq* |
| Kitab 8 | *Həzrət Bəhaullahın Əhdi* |
| Kitab 9 | *Tarixi Perspektivin Əldə Edilməsi* |
| Kitab 10 | *Canlı İcmaların Qurulması* |
| Kitab 11 | *Maddi Vəsaitlər* |
| Kitab 12 | (Gözlənilən kitab) |
| Kitab 13 | *Sosial Fəaliyyətlə Məşğul Olmaq* |
| Kitab 14 | (Gözlənilən kitab) |

2020-ci il nəşrləri üzrə müəlliflik hüququ Kolumbiyada yerləşən Ruhi Fonduna aiddir.
Bütün hüquqlar qorunur. Nəşr 4.1.1.PE 2020-ci il sentyabr ayı

Originally published in Spanish as Reflexiones sobre la vida del espíritu
Copyright © 1987, 1995, 2008, 2020 by the Ruhi Foundation, Colombia
ISBN 978-958-59880-3-3

Ruhi İnstitutu
Kolumbiya, Kali şəhəri
Elektron ünvan: instituto@ruhi.org
Veb sayt: www.ruhi.org

# Mündəricat

Aparıcı üçün bir neçə fikir ...................................... v

Bəhai Yazılarının Anlaşılması ................................ 1

Dua ......................................................................... 13

Həyat və Ölüm ...................................................... 29

# Aparıcı üçün bir neçə fikir

Ruhi İnstitutunun təklif etdiyi əsas kurslar ardıcıllığının ilk kitabı olan *Ruhun Həyatı Üzərində Düşüncələr*-in dünya üzrə öyrənildiyi yerlərin sayı uzun illər ərzində daim artmışdır. Əksər hallarda material müntəzəm görüşlər keçirən dərnəyi təşkil edən, intensiv öyrənmə üçün təşkil edilmiş kampaniyada bir araya gələn, yaxud məktəb tətili müddətində düşərgədə toplaşan bir qrup dost tərəfindən oxunur və müzakirə olunur. İstənilən halda, qrupun bir üzvü aparıcı kimi çıxış edir. Aparıcı ilə digər iştirakçılar arasındakı münasibət müəllim-tələbə münasibəti deyil; hamı şüurlu şəkildə hər kəsin öyrənmək istədiyi prosesə qoşulmuşdur. Həm də aparıcı özü müzakirənin mövqesiz və passiv fasilitatoru deyil. Ardıcıllıqda kafi sayda kursları bitirmiş və onların təşviq etdiyi xidmət aktlarını yerinə yetirmiş aparıcı öyrənilməkdə olan materialın məqsədinə çatmaqda qrupun hər bir üzvünə kömək etməyə qabil olur. Kitab 1 üzrə aparıcı kimi fəaliyyət göstərənlər bu müqəddimədə təqdim edilən ideyaları vaxtaşırı nəzərdən keçirməyin faydalı olduğunu görə bilərlər.

Bütün dünyada iştirakçılar institutun bu başlanğıc kursuna müxtəlif mənşələrdən gəlirlər. Bəziləri artıq Bəhai icmasının üzvləridir ki, qəbul etdikləri Əmrə xidmət etmək qabiliyyətini yüksəltməyə ümid edirlər. Digərləri isə bu kursu Bəhai İnancını bir din kimi araşdırmağın başlanğıcı kimi görürlər. Bir başqaları isə Bəhai ideallarına cəzb olunur, icmanın məqsəd və səyləri ilə tanış olmaq istəyirlər. Xüsusilə, sayı artmaqda olan gənc insanlar vardır ki, özlərinin cəmiyyətə xidmət etmək qabiliyyətini çox vaxt Bəhai icmasının həyata keçirdiyi bu və ya digər proqram vasitəsilə inkişaf etdirmək istəyərək, ilkin addım kimi bu kursu keçirlər.

Lap əvvəldən hər bir iştirakçıya aydın olmalıdır ki, Ruhi İnstitununun kursları bəşəriyyətə xidmət yolu cızır ki, bizim hər birimiz o yolda başqalarına kömək edərək və onlardan yardım alaraq öz sürətimizlə gedirik. Bu yolla getmək ikili mənəvi-əxlaqi məqsədi güdməyi nəzərdə tutur: fərdin öz ruhani və intellektual inkişafının qayğısına qalmaq və cəmiyyətin transformasiyasına töhfə vermək. Bu yolda irəliləmə anlayış və biliyin, ruhani keyfiyyətlər və tərifəlayiq münasibətlərin, həmçinin bir çox qabiliyyət və bacarıqları tələb edən qadiriyyətin inkişafına gətirib çıxarır. İnstitutun kitablarının istifadə etdiyi bilik mənbələri bir tərəfdən Bəhai Dininin təlimləridirsə, digər tərəfdən, maddi və ruhani sivilizasiyanı irəlilətməkdə dünya Bəhai icmasının toplanan təcrübəsidir. İnstitutu ilhamlandıran məhz Həzrət Bəhaullahın bizim ola biləcəyimiz fərd və qura biləcəyimiz sivilizasiya barədə baxışıdır. Fərz edilir ki, mənşəyindən asılı olmayaraq bütün iştirakçılar hər bir kitabın hər fəslində aydın görünən bu baxışı qəbul etməyə açıqdırlar.

Məzhəb və ideologiyaların tərəfkeş qazanmaq üçün mümkün olan hər vasitədən istifadə etməyə hazır olduqları bir dünyada bu Din ilə tanış olmayan bir kəsin Ruhi İnstitutunun niyyətləri barədə səmimi sualları, ən çox da, "Məndən dinimi dəyişməyimimi istəyirlər?" yaxud "Mənim bir dinə qoşulmağımımı istəyirlər?" kimi sualları ola bilər. Bu cür suallar yuxarıda da qeyd olunduğu kimi kurslar ardıcıllığının məqsədini izah etmək üçün aparıcıya bir fürsət yaratmış olur. Bəhailərin öz dostlarının icmaya qoşulmaqlarını görmək istəkləri təbii olsa da, onların öz təlimləri, aparıcı əlavə etmək istəyə bilər ki, prozelitizmlə məşğul olmağı qadağan edir. İnstitutun kursları tərəfindən açılmış xidmət yolu ilə getmək Həzrət Bəhaullahın

təlimlərini getdikcə dərindən başa düşməyi tələb edir ki, bunu da materiallar birmənalı şəkildə izhar etməyə çalışır; dini qəbul etmək və iman elə məsələlərdir ki, onların barəsində hər bir fərd azad şəkildə və təzyiq olmadan düşünməlidir.

Ona görə də, təəccüblü deyil ki, elə bu birinci kitab da silsilədəki bütün kitablar üçün mərkəzdə dayanan anlayış məsələsi ilə başlayır. Müqəddəs Yazıları oxumaq bir insanın həyatı boyu oxuduğu minlərlə səhifənin oxunması ilə eyni deyildir və “Bəhai Yazılarının Anlaşılması” fəsli hər gün Müqəddəs Kitalardan oxumaq və onların mənası üzərində düşünmək vərdişini bəsləmək istəyir, bir vərdiş ki, xidmət yoluna başlayanda iştirakçılara xeyli kömək edəcəkdir. Öyrənməkdə onları istiqamətləndirmək üçün aparıcı anlayış mövzusuna çox böyük diqqət ayırmalıdır.

Bəhai Yazıları dərin ruhani həqiqətləri özündə ehtiva edir və onların sonsuz mənaları üzərində anlayışımızı inkişaf etdirməyə çalışdıqca bilirik ki, biz heç vaxt qəti sonluğa çata bilməyəcəyik. Biz ümumən birinci dəfə oxuyanda bir parçanın birbaşa mənası barədə elementar anlayış əldə edirik və fəslin 1-ci bölməsində bu, başlanğıc nöqtəsi kimi qəbul edilir. Beləliklə, “Dünyanın yaxşılaşdırılmasına pak və xeyir əməllər, bəyənilən və layiqli davranışla nail olmaq olar” sitatını oxuduqdan sonra iştirakçılardan sadəcə soruşulur: “Dünyanın yaxşılaşdırılmasına necə nail olmaq olar?” İlk baxışda bu cür sualların və çalışmaların çoxu həddən artıq sadə görünür. Lakin illərin təcrübəsi İnstitutun bu yolla başlamaq qərarına haqq qazandırır. Biz hamımız xatırlamalıyıq ki, bu parçadakı həqiqətin təbəqələrini tapmaq üçün tələsərkən ağıl onun aşkar mənasını da nəzərdən qaçırmamalıdır. Dərketmənin birinci səviyyəsinə diqqətin ayrılması qrup məşvərəti üçün həyati əhəmiyyət daşıyır: o, şəxsi fikirlərin İlahi hikmətlə işıqlanmasına imkan verdikdə asanlıqla əldə edilə bilən fikir birliyini möhkəmləndirir.

Burada qeyd etmək lazımdır ki, ayrı-ayrı sözlərin kontekstdən kənar uzun müzakirəsi əksər parçaların birbaşa mənasının anlaşılmasına fayda vermir. Ancaq bununla belə bəzən zərurət yarana bilər ki, qrup bir söz üçün lüğətə baxsın. Lakin daha səmərəlisi bu olardı ki, iştirakçılar sözlərin mənalarını bütöv cümlələrdən və paraqraflardan çıxarmağı öyrənsinlər.

Anlayışın genişlənib birbaşa məna müstəvisindən kənara çıxması üçün fikirlərin necə konkret ifadəsini tapdığını göstərən misallar faydalı ola bilər. Bu mənada lazım olan yeganə şey bilavasitə çalışmaların yerinə yetirilməsidir. Məsələn, 2-ci bölmədə iştirakçılardan xahiş edilir ki, yenicə oxuduqları parçanın işığında müəyyən xüsusiyyətlərin bəyənilən olub-olmadığını müəyyən etsinlər. 4-cü Bölmədəki bənzər çalışmada onlardan beş fəzilətin adının çəkilməsi və sonra Yazılarda “bütün insani fəzilətlərin təməli” kimi təsvir edilən doğruluğun olmadığı təqdirdə onları əldə etməyin mümkün olub-olmadığı barədə qərar vermələri təşviq edilir.

Məqsədinə çatmaq üçün bu fəsil, təqdim edilən parçaların bəzi mənaları haqqında iştirakçılar qarşısında düşünmək çağırışı qaldıraraq anlayışda daha da irəli getməyi tələb edir. 2-ci bölmədə onlardan tələb olunur ki, “Dünyada yaxşı adamlar o qədər azdır ki, onların hərəkətlərinin heç bir təsiri yoxdur” müddəasının doğru olub-olmadığını müəyyən etsinlər. Burada məqsəd sadəcə mövqeləri aşkarlamaq deyil. Aparıcı fasilə etməli və iştirakçıların cavablarının səbəblərini soruşmalıdır. Qrup müddəanın labüd olaraq yanlış olması fikrinə gəlib çıxmalıdır, çünki bu, əvvəlki bölmədəki sitatla ziddiyyət təşkil edir. Bəhailər öz günahlarını başqalarına etiraf edə bilərlərmi sualı da bu cür çalışmalara bir misaldır. Bu, təlimlərdə günahın bağışlanması vasitəsi kimi etirafın qadağan edilməsinə işarə edir ki, öyrənilən parçaların heç birində açıq şəkildə qeyd edilməmişdir, amma bu ayənin mənasını araşdırmaqla onu çıxarmaq olar: "Hesabata çəkilməmiş hər gün özünə hesabat ver”.

Fəsildəki çalışmalar heç vəchlə nəzərdən keçirilən parçalardakı bütün mübhəm mənalar diapazonunu əhatə etməyə cəhd etmir. Üzərində hər bir aparıcının düşünməli olduğu bir sual budur ki, hər hansı verilmiş çalışmaya nə qədər müzakirə həsr olunmalıdır. Burada yadda saxlamaq lazımdır ki, aidiyyatı olan çoxlu sayda, lakin ikinci dərəcəli konsepsiyaların uzun-uzadı müzakirələri materialın effektivliyini azalda bilər. Hər qrup münasib irəliləyiş ritmi qurmalıdır; iştirakçılarda bariz bir hiss olmalıdır ki, onlar öz imkanlarına uyğun olaraq stabil şəkildə irəli gedirlər. Lakin aparıcı diqqətli olmalıdır ki, çalışmaların dolğun təhlili olmadan bölmələrin üzərindən tez-tələsik və səthi keçilməsin; sadəcə cavabları dolduraraq bu cür davam edən qruplar heç vaxt qalıcı nəticələrə nail olmamışlar.

Sonuncu bir məqam da qeyd edilməyə dəyər: aparıcı qrupun hər bir üzvünün materialın bəslədiyi öyrənmə prosesinə cəlb olunmuş olmasına əmin olmalıdır. Hər hansı fərdin danışması üçün təzyiq göstərmədən iştirakını təmin etmək çox vaxt meydanoxuyucu olur. Elə lap əvvəldən başa düşülməlidir ki, “Bu, sizin üçün nə deməkdir?” kimi sualların verilməsi ilə bu məsələ çox az hallarda həll oluna bilir. Bu cür suallar bilik və həqiqəti sadəcə mövqe səviyyəsinə qədər kiçiltmək meyli daşıyır. Ona görə də, qrupun üzvləri arasında məşvərətin anlayışı yüksəltdiyi bir atmosferin yaradılması çətin olur.

Kitabın ikinci fəsli birinci fəsil kimi ruhani həyat üçün mühüm olan bir vərdişlə bağlıdır: müntəzəm dua etmək. Açılış bölməsində “xidmət yolu” konsepsiyası bunu aydınlaşdırır və irəli sürür ki, bu yolla getmək üçün bizim fikrimizə ikili məqsəd ideyası hopmalıdır. İştirakçılar bu məqsədin təbiəti barədə bəsirət verən ilkin sitatlar dəstini nəzərdən keçirirlər ki, bu da gələcək kurslarda daha ətraflı araşdırılacaq bir mövzudur.

Bu mövzunun fonunda bu fəsil duanın əhəmiyyəti barədə araşdırmaya toxunur. Bu, əvvəlki paraqraflarda təsvir olunan yanaşmalara bənzər yanaşmalar qəbul edir. Suallar və çalışmalar elə tərtib olunmuşdur ki, Yazılardan öyrənilməkdə olan parçaların mənası barədə anlayışı yüksəltsin. Qrup fəsil üzrə irəlilədikcə aparıcıdan keçmişin şərh və təcrübələrində kök salmış təsəvvürləri təhlil edərək şübhələri dağıtmaq tələb oluna bilər. Bəzi ənənələrdə ayin və forma daxili halətin vacibliyini tədricən üstələmişdir və bir çox insan duanın vacibliyinə etina etmir, halbuki dua insan ruhu üçün bədəni bəsləyən qidadan heç də az əhəmiyyətə malik deyil.

Odur ki, hər şeydən əvvəl, bu fəsil iştirakçılarda “Allahla söhbət etmək” və Ona yaxınlaşmaq arzusunu oyatmağa can atır. Baxılan ideyalar arasında dua halətinə girmək nə deməkdir, dua edərkən bizim ürəyimizin və ağlımızın vəziyyəti, tənha və ya yığıncaqda olmağımızdan asılı olmayaraq ətrafımızda yaradılmalı olan şərait kimi məsələlər vardır. Doğrudan da, ümumi sitayiş vasitəsilə yaradılan güclər üzərində bir qədər düşündükdən sonra iştirakçılardan xahiş edilir ki, dua və ibadət yığıncağına ev sahibliyi etmək məsələsinə baxsınlar.

Ümid edilir ki, kitabın üçüncü, “Həyat və Ölüm” fəslinin öyrənilməsi xidmət yolunda getmək təəhhüdünü möhkəmləndirəcək və o yola daha dərin bir məna verəcəkdir. Bu dünyada xidmət həyatın tam kontekstində baxıldıqda daha yaxşı başa düşülür ki, bu həyat yer üzündəki mövcudluğun fövqünə qalxır və bizim ruhumuz Allahın aləmlərində inkişaf etdikcə əbədi olaraq davam edir. Texniki təlimin əksinə olaraq, iştirakçılar təlim-tərbiyə prosesində etdiklərinin mənası və əhəmiyyəti barədə getdikcə daha çox şüurlu olmalıdırlar. Təcrübə göstərir ki, yalnız bu cür şüurluluğun artdığı halda onlar özlərinə öyrənmələrinin fəal və məsuliyyətli “sahibləri” kimi baxacaqlar.

Bu fəslin hər bir bölməsi bir neçə çalışma ilə müşayiət olunmaqla Bəhai Yazılarından bir, iki yaxud üç sitatla başlayır. Bu fəsildə iqtibas edilən parçaların dili əvvəlki iki fəsildəkindən daha çox diqqət tələb edir. Əlbəttə, qrupun çətin sözlər üzərində dayanmasına ehtiyac yoxdur; aparıcı hər kəsin hər bir bölmədə xitab edilən mərkəzi ideyanı tutmasını təmin etmək istəyəcək və çalışmaların ortaya çıxarmaq istədiyi məhz budur.

Mövzunun təbiətini nəzərə alaraq, konkret misallar ehtiva edən cəmi bir neçə çalışma vardır və onlara nadir hallarda rast gəlinir. Əksər hissəsi konseptual səviyyədə işlənir. Qeyd etmək lazımdır ki, çalışmalarda verilən bəzi suallara tez yaxud aydın cavab vermək mümkün deyil. Onlar mövzu barədə agahlığı yüksəltmək məqsədilə daxil edilmişdir; əgər iştirakçılar bu suallar üzərində sadəcə düşünsələr, öyrənmənin məqsədinə nail olunmuş olacaq.

İlk bir neçə bölmə birlikdə bu mövcudluq aləmində insan varlığını təşkil edən ruhla bədən arasındakı əlaqə üzərində fokuslanır. Bu bölmələrdə təqdim edilən əsas ideya budur ki, ruh fiziki məfhum deyil; onun bədənlə bağlılığı güzgüdə əks olunan işığa bənzədilə bilər. Nə güzgünün səthini tutan toz, nə də güzgünün sonda qırılması işığın özünün şəfəqinə təsir edə bilməz. Ölüm sadəcə bədənlə ruh arasındakı əlaqə qırılanda şəraitin dəyişməsidir; bundan sonra ruh əbədi olaraq Yaradana doğru tərəqqi edir.

Bu fəsildə sonra həyatın məqsədi məsələsinə – Allahı tanımaq və Onun hüzuruna yetişmək məsələsinə baxılır. Burada müzakirələr iki geniş mövzu ətrafında cərəyan edir. Birincisi bizim bu dünyada həyat məqsədimiz və ikincisi isə ruhun ölümdən sonrakı səyahətidir. Ruh Allahın əlamətidir və Onun bütün ad və sifətlərini əks etdirə bilər. Lakin insan varlığı daxilindəki potensial gizlidir; o, ancaq Allahın Məzhərlərinin, insanlığı hidayət etmək üçün zaman-zaman gələn o müqəddəs Varlıqların köməyi ilə inkişaf etdirilə bilər. Onların verdikləri ruhani təlim-tərbiyə ilə bizim daxilimizdəki gizli xəzinələr aşkara çıxarıla bilər.

Ölümdən sonra ruhun səyahətinə gəldikdə isə, iştirakçıların üzərində təfəkkür etmələri üçün silsilə ideyalar verilir: ki, Allaha vəfalı olanlar həqiqi xoşbəxtliyə yetişəcəklər; ki, bizlərdən heç birimiz öz sonumuzun necə olacağını bilə bilmərik, ona görə də bir-birimizi bağışlamalı və özümüzü başqalarından üstün tutmamalıyıq; ki, bu dünyada olduğu kimi, o biri dünyada da ruh inkişafını davam etdirəcək və burada inkişaf etdirilmiş ruhani güclər orada bizə kömək və yardım edəcək; ki, biz sevdiklərimizi o uca aləmlərdə tanıyacaq, bu dünyadakı həyatımızı xatırlayacaq, müqəddəs və pak ruhlarla yoldaşlıqdan həzz alacağıq.

Bu fəsil Həzrət Bəhaullahın Yazılarından bir parça ilə sona yetir ki, orada biz o biri dünyanın faydaları barədə əmin edilir və bu dünyanın dəyişiklik və qəzavü-qədərinin bizə kədər gətirməsinə imkan verməməyə sövq edilirik. Sonra iştirakçılardan xahiş edilir ki, öyrəndiklərinin onların öz həyatlarında nəticələri üzərində düşünsünlər.



# Bəhai Yazılarının Anlaşılması

Məqsəd

Hər gün Müqəddəs Yazılardan parçalar oxumaq və onların mənası üzərində düşünmək vərdişini möhkəmləndirmək

# BÖLMƏ 1

Bu fəslin məqsədi Müqəddəs Yazılardan parçaları hər gün oxumaq və onların mənası üzərində düşünmək vərdişini inkişaf etdirmək və möhkəmləndirməkdə sizə kömək etməkdir. Fəsil sadə bir çalışma ilə başlayır – bu çalışmada sizdən Yazılardan bir cümləlik müddəa oxumaq və suala cavab vermək istənilir ki, cavab da elə müddəanın özüdür. Bu çalışmanı yerinə yetirmək asan olsa da, o, verilən müddəanın mənası üzərində düşünməkdə və onları əzbərləməkdə sizə kömək edəcəkdir.

**"Dünyanın yaxşılaşdırılmasına pak və xeyir əməllər, bəyənilən və layiqli davranışla nail olmaq olar."[1]**

1. Dünyanın yaxşılaşdırılmasına necə nail olmaq olar? ____________________________

______________________________________________________________________

______________________________________________________________________

**"Ehtiyatlı olun, ey Bəha əhli! Sözləri ilə əməlləri bir olmayanların yolu ilə getməyin."[2]**

2. Biz kimlərin yolu ilə getməməliyik? ____________________________

______________________________________________________________________

______________________________________________________________________

**"Ey Varlıq Oğlu! Hesaba çəkilməmiş hər gün özünə hesabat ver..."[3]**

3. Hesaba çəkilməmiş biz nə etməliyik? ____________________________

______________________________________________________________________

______________________________________________________________________

**"Söylə: Ey qardaşlar! Özünüzü sözlərlə deyil, əməllərlə bəzəyin."[4]**

4. Bizim həqiqi bəzəyimiz nə olmalıdır? ____________________________

______________________________________________________________________

______________________________________________________________________

**"Müqəddəs sözlər, pak və xeyir əməllər İlahi izzət səmasına yüksələr."[5]**

5. Müqəddəs sözlər, pak və xeyir əməllər nə edər? ____________________________

______________________________________________________________________

______________________________________________________________________

## BÖLMƏ 2

Aşağıda sizin indicə oxuduğunuz sitatlara aid bir sıra çalışmalar verilmişdir. Onlar qrupunuzda parçaların mənası üzərində düşünməyi davam etdirməkdə sizə kömək etmək məqsədi daşıyır və bu, mexaniki şəkildə icra edilməməlidir. Bu o demək deyil ki, hər bir çalışma çox uzun müzakirə tələb edir. Lakin çalışma meydanoxuyucu olanda qrupunuzun aparıcısı sizə onun hərtərəfli araşdırılmasında kömək edəcəkdir.

1. Bir şey "bəyənilən" olduqda, o, tərifəlayiq olur. Aşağıdakılardan hansılar bəyənilləndir?

_____ Yaxşı işçi olmaq

_____ Başqalarına hörmət etmək

_____ Çalışqan olmaq

_____ Yalançı olmaq

_____ Tənbəl olmaq

_____ Başqalarına xidmət etmək

2. "Hesaba çəkilməmiş" ifadəsinin mənası nədir? ________________________________

____________________________________________________________________________

3. Aşağıdakı müddəalardan hansılar doğrudur?

_____ Dünyada yaxşı adamlar o qədər azdır ki, onların hərəkətlərinin heç bir təsiri yoxdur.

_____ Bir şey başqa insanların fikirləri ilə uyğun olduqda doğrudur.

_____ Bir şey Allahın təlimləri ilə uyğun olduqda doğrudur.

4. Aşağıdakılardan hansılar pak və xeyir əməllərdir?

_____ Uşaqların qayğısına qalmaq və onları öyrətmək

_____ Oğurluq

_____ Başqalarının inkişafı üçün dua etmək

_____ Çətinlikdən qurtulmaq üçün kiçik yalan danışmaq

_____ Başqalarına kömək etmək və əvəzində mükafat gözləmək

5. Aşağıdakı halların hansında insanın sözləri əməllərindən fərqlənir?

_____ Kimsə daim təkrar edir ki, biz hamımız bir olmalıyıq, lakin münaqişə yaradacaq tərzdə davranır.

_____ Kimsə iffətli həyatın dəyərini tərifləyir, amma nigahdankənar cinsi münasibətləri var.

_____ Kimsə hərdənbir spirtli içki qəbul edir, amma spirtli içki qəbulunu qadağan edən bir dinə inandığını söyləyir.

_____ Kimsə kişi və qadınların bərabərliyini müdafiə edir, amma bir iş sahibi kimi eyni iş üçün qadınlara kişilərdən az maaş verir.

6. Bəhainin öz günahını başqasına etiraf etməsinə icazə verilirmi?__________________

7. Günahlarını etiraf etmək əvəzinə o, nə etməlidir? ______________________________

______________________________________________________________________

8. "İlahi izzət səması" ifadəsinin mənası nədir?________________________________

______________________________________________________________________

9. Pis əməllər dünyaya necə təsir edir? __________________________________________

______________________________________________________________________

10. Pis əməlləri törədənlərə bu əməllərin təsiri necədir? ____________________________

______________________________________________________________________

## BÖLMƏ 3

İndi isə Yazılardan aşağıdakı sitatları oxuyun və üzərində düşünün. Sonra onları əzbərləməyə çalışın.

**"Doğruluq bütün insani fəzilətlərin təməlidir."[6]**

1. Bütün insani fəzilətlərin təməli nədir? ______________________________________

______________________________________________________________________

**"Doğruluq olmazsa Allahın heç bir aləmində heç bir ruh üçün tərəqqi və yüksəliş mümkün olmaz."[7]**

2. Doğruluq olmazsa, nə mümkün olmaz? ______________________________________

______________________________________________________________________

**"Ey insanlar, dilinizi doğruluqla zinətləndirin, ruhlarınızı isə dürüstlük naxışı ilə bəzəyin."[8]**

3. Biz dilimizi nə ilə zinətləndirməliyik? ______________________________________

______________________________________________________________________

4. Biz ruhlarımızı nə ilə bəzəməliyik? ________________________________________

________________________________________________________________

**“Qoy gözünüz iffətli, əliniz etibarlı, diliniz doğru, qəlbiniz isə nurlanmış olsun.”[9]**

5. Gözümüz necə olmalıdır? ___________________ Əlimiz? ____________________

Dilimiz? __________________________ Qəlbimiz? ___________________________

**“Allahın Çadırında sakin olan və əbədi şərəf kürsülərində oturanlar acından ölsələr də, qonşusu nə qədər alçaq və ləyaqətsiz olsa da, onun malına əl uzatmaqdan və qanunsuz ələ keçirməkdən imtina edəcəklər.”[10]**

6. Hətta acından ölsək belə, biz nəyi etməkdən imtina etməliyik?__________________

________________________________________________________________

________________________________________________________________

## BÖLMƏ 4

İkinci bölmədə bəlkə də görmüsünüz ki, bu fəsildə çalışmaların bəziləri dəqiq cavablar tələb edir. Belə hallarda cavabla bağlı şübhə olarsa, aparıcınız fikir birliyinə yetişməkdə sizə və yoldaşlarınıza kömək edə biləcək. Digər çalışmalar üçün isə müzakirənin məhz özü dəyərlidir və heç bir xüsusi cavab da gözlənilmir. Aşağıdakı 3-cü çalışma bu qəbildəndir, 6-cı çalışma isə ikinci kateqoriyaya aiddir.

1. Doğruluq bütün insani fəzilətlərin təməlidir. Beş insani fəziləti sadalayın:_________

________________________________________________________________

________________________________________________________________

2. Doğruluq olmadan biz bu fəzilətlərə yiyələnə bilərikmi? _______________________

3. Aşağıdakı müddəalardan hansılar doğrudur?

_____ İnsan hətta yalan danışsa belə, ədalətli ola bilər.

_____ Oğurluq edən şəxsin əli etibarlıdır.

_____ Etibarlı əl ona məxsus olmayan şeyə heç vaxt toxunmaz.

_____ Pornoqrafik materiala baxmaq Həzrət Bəhaullahın iffətli göz barədə nəsihətinə ziddir.

_____ Doğruluq yalan danışmamaq deməkdir.

_____ Dürüstlük ruhun naxışıdır.

_____ Doğruçu olmayan insan ruhən inkişaf edə bilər.

_____ Hərdənbir yalan danışmaq olar.

_____ Ac adamın oğurluq etməsi Allahın qarşısında məqbuldur.

_____ Sonra qaytaracağımızı düşünərək sahibinin izni olmadan onun malını götürmək oğurluq deyildir.

_____ Biz dürüst hərəkət edəndə, insaflı və doğruçu olanda qəlbimiz nurlanır.

_____ Azacıq aldatmadan biznesi uğurlu etmək mümkün deyil.

4. Özünü aldatmaq mümkündürmü? ______________________________________

5. Yalan danışdıqda biz nəyi itiririk? ______________________________________

______________________________________________________________

6. Biz hamımız doğruçu və dürüst olsaydıq, dünya necə olardı?__________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

## BÖLMƏ 5

Növbəti sitatları oxuyun və onları əzbərdən öyrənməyə çalışın. Yazılardan sitatları əzbərləmək yüksək dərəcədə faydalıdır və siz bunu etmək üçün hər cür səy göstərməlisiniz. Əlbəttə, heç də hər kəs parçaları asanlıqla əzbərləməyə qadir deyil. Lakin səy göstərmək fikirləri ürəyimizdə və zehnimizdə həkk etməkdə, onları orijinal mətnə mümkün qədər uyğun sözlərlə ifadə etməkdə bizə kömək edir.

**"Mehriban dil insanların qəlblərini cəzb edən maqnitdir. O, ruhun qidasıdır, sözlərə məna donu geyindirir, hikmət və anlayış nurunun qaynağıdır."**[11]

1. Mehriban dili necə təsvir etmək olar? ______________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

2. Mehriban dil sözlərə necə təsir edir? ______________________________________

______________________________________________________________

**"Siz ey Rəbbin sevimliləri! Bu müqəddəs Zühur Dövründə münaqişə və çəkişməyə heç bir vəchlə izin verilmir. Hər münaqişə salan özünü Allahın fəzlindən məhrum etmiş olur."**[12]

3. Yuxarıdakı sitata əsasən bu Zühur Dövründə nəyə izin verilmir? ________________

______________________________________________________________________

4. Münaqişə salan özünə nə etmiş olur? ________________________________________

______________________________________________________________________

**"Bu gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və ədavət, çəkişmə, yadlaşma və etinasızlıqdan başqa heç nə daha böyük ziyan vura bilməz.**[13]

5. Allahın Əmrinə hansı şərait ən böyük ziyanı vurur? ___________________________

______________________________________________________________________

______________________________________________________________________

**"Dostluğunuzu yalnız sözlərdə göstərməklə kifayətlənməyin; qoy sizin ürəyiniz yolunuzun kəsişdiyi hər kəsə qarşı sevgi və iltifatla alışıb yansın."**[14]

6. Biz nə cür dostluğa qane olmamalıyıq? _____________________________________

______________________________________________________________________

7. Bizim ürəyimiz nə ilə alışıb yanmalıdır? ___________________________________

______________________________________________________________________

**"Savaş fikri gəldikdə, ona daha güclü olan sülh fikri ilə müqavimət göstərin. Nifrət fikri isə daha qüvvətli olan məhəbbət fikri ilə dağıdılmalıdır."**[15]

8. Savaş fikrinə nə ilə müqavimət göstərilməlidir? ______________________________

______________________________________________________________________

9. Nifrət fikri nə ilə dağıdılmalıdır? _________________________________________

______________________________________________________________________

## BÖLMƏ 6

Yuxarıdakı sitatları yadda saxlayaraq aşağıdakı çalışmaları yerinə yetirin:

1. Mehriban dil necə maqnit kimi olur? ________________________________________

2. Aşağıdakı ifadələrdən hansılar mehriban dil ilə söylənmişdir?

_____ "Məni narahat etmə!"

_____ "Sən bunu niyə başa düşmürsən?"

______ "Zəhmət olmasa, gözləyə bilərsinizmi?"

______ "Necə dəhşətli uşaqlardır!"

______ "Çox sağ olun, çox lütfkarsınız."

______ "İndi sizə ayıracaq vaxtım yoxdur. Məşğulam."

3. Aşağıdakı vəziyyətlərin hansında münaqişə və çəkişmə var?

______ Məşvərət zamanı iki nəfər müəyyən mövzu üzərində müxtəlif fikirlər söyləyirlər.

______ Məşvərət zamanı iki nəfər məyus olur və bir-biri ilə mübahisə edirlər.

______ İki nəfər bir-biri ilə danışmadıqları üçün həftəlik dua görüşlərinə getməyi dayandırırlar.

______ Bir layihə üzərində əməkdaşlıq edən bir komandanın üzvləri şikayətlənməyə davam edir, hər biri deyir ki, digərləri öz işlərini görmürlər.

4. Aşağıdakı hallardan hansıları yadlaşma əlamətlərini göstərir?

______ İki dost küçədə bir-birinin yanından keçir, amma bir-birinə məhəl qoymurlar.

______ Kimsə dua görüşünə gəlir və hər kəs onu hərarətlə salamlayır.

______ Bir-birinə qarşı nəzakətli olsalar da, bir qrupun iki üzvü bir layihədə birlikdə iştirak etməkdə istəksizdirlər.

5. Aşağıdakı müddəaların düz olub-olmadığına qərar verin:

______ Bir kəs başqaları barədə nə düşünürsə onu da deməlidir, hətta onların qəlbi qırılsa belə eybi yoxdur.

______ Münaqişədən qaçmaq üçün yalan danışmaq olar.

______ Münaqişəni məhəbbət və mehribanlıqla dəf etmək olar.

______ Sözlər məhəbbətlə deyildikdə daha təsirli olur.

______ Savaşı birinci başlatmış adamla savaşmaq düzgündür.

______ Xəstə və ya kədərli olan şəxsin başqalarına qarşı sərt olmağa ixtiyarı var.

______ Başqaları nəyisə səhv edəndə onlara gülmək yaxşı deyil.

______ Dostlar arasında inciklik olduqda, hər biri digərinə yaxınlaşmaq üçün xüsusi səy göstərməlidir.

______ Dostlar arasında inciklik olduqda, hər biri o vaxta qədər gözləməlidir ki, digəri ona yaxınlaşmağa səy göstərsin.

## BÖLMƏ 7

Aşağıdakı sitatları oxuyun və onları əzbərləyin.

**". . . qeybət qəlbin nurunu söndürür və ruhun həyatını məhv edir."**[16]

**"Özün günahkar ikən başqalarının günahı barədə nəfəs belə çəkmə!"**[17]

**"Pis demə ki, pis eşitməyəsən, başqalarının eybini böyütmə ki, öz eybin böyük görünməsin . . ."**[18]

**"Ey Varlıq Oğlu! Necə oldu, öz qüsurlarını unudaraq başqalarının qüsurları ilə məşğul oldun?"**[19]

1. Qeybət onu edənə necə təsir göstərir?__________________________________

   ________________________________________________________________

2. Başqalarının günahlarından danışmazdan əvvəl biz nə barədə düşünməliyik? _____

   ________________________________________________________________

3. Başqasının eybini böyütsək, bizimlə nə baş verər?_________________________

   ________________________________________________________________

4. Başqa adamların qüsurları barədə düşünərkən biz nəyi xatırlamalıyıq? __________

   ________________________________________________________________

## BÖLMƏ 8

Yuxarıdakı sitatları yadda saxlayaraq aşağıdakı çalışmaları yerinə yetirin:

1. Diqqətini başqa adamların qüsurlarına yönəldən şəxsin ruhunun inkişafında nə baş verir? ________________________________________________________

2. Qeybət bir icmaya necə təsir göstərir? ___________________________________

   ________________________________________________________________

3. Bir dost başqa bir şəxsin qüsurları barədə danışmağa başlayanda siz nə edirsiniz? __

   ________________________________________________________________

4. Aşağıdakı müddəaların düzgün olub-olmadığına qərar verin:

   ______ Bir kəsin gerçək qüsurlarından danışarkən biz qeybət etmirik.

   ______ Bir kəsin eyni zamanda həm tərifəlayiq keyfiyyətlərindən, həm də qüsurlarından danışarkən biz qeybət etmirik.

   ______ Qeybət bizim cəmiyyətdə adi hala çevrilib və ondan qaçmaq üçün biz gərək özümüzdə intizam yaradaq.

______ Başqası barədə danışdığımızı dinləyən şəxs eşitdiyini heç kəsə danışmayacağına söz verirsə, qeybət etməyin ziyanı yoxdur.

______ Qeybət birliyin ən böyük düşmənlərindən biridir.

______ Əgər biz hər zaman başqaları barədə danışmağa adət etsək, biz asanlıqla qeybətcilliyə yuvarlana bilərik.

______ Bir komitənin üzvlərini təyin etmək üçün Yerli Ruhani Məhfilin iclasında müxtəlif adamların qabiliyyətləri müzakirə ediləndə bu, qeybətdir.

______ Qeybət etmək istədikdə biz gərək öz qüsurlarımızı xatırlayaq.

______ Kiminsə Dinə ziyan gətirən bir iş gördüyünü bildikdə biz gərək bunu icma üzvləri ilə müzakirə edək.

______ Kiminsə Dinə ziyan gətirən bir iş gördüyünü bildikdə biz gərək bunu yalnız Yerli Ruhani Məhfilə bildirək.

______ Evli cütlük üçün başqa insanların qüsurlarından danışmaq xəta deyil, çünki onlar gərək bir-birindən sirr saxlamasınlar.

## BÖLMƏ 9

Başlanğıcda qeyd edildiyi kimi, bu fəslin məqsədi hər gün Müqəddəs Yazılardan parçalar oxumaq və onların mənaları üzərində düşünmək vərdişi yaratmaq və möhkəmləndirmək səylərində iştirakçılara kömək etməkdir. Hər səhər və axşam Allahın ayələrini oxumaq Həzrət Bəhaullahın bizim ruhani inkişafımıza kömək edən bir təlimidir. Aşağıdakı parça bizim bu öhdəliyi yerinə yetirməyimizdən əldə etdiyimiz bərəkətləri xatırladır və siz bunu əzbərləyib yadda saxlamağa təşviq olunursunuz:

> **"Özünü Mənim sözlərimin dəryasında qərq eylə ki, onun sirlərini aça və onun dərinliklərində gizli qalmış hikmət mirvarilərini üzə çıxara biləsən."**[20]

Bu fəsli bitirdikdən sonra siz Həzrət Bəhaullahın Yazıları olan bir kitabı əldə etmək və hər gün ondan oxumağı istəyə bilərsiniz. *Gizli Kəlamlar* başlanğıc üçün yaxşı seçimdir.

# İSTİNADLAR


1. Həzrət Bəhaullah, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *İlahi Ədalətin Gəlişi* (Wilmette: Bahá'í Publishing Trust, 2006, 2018 nəşri), hissə. 39, s. 36–37.

2. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Wilmette: Bahá'í Publishing Trust, 1983, 2017 nəşri), CXXXIX, hissə. 8, s. 345.

3. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Wilmette: Bahá'í Publishing Trust, 2003, 2012 nəşri), Ərəbcə №. 31, s. 11.

4. Yenə orada, Farsca №. 5, s. 24.

5. Yenə orada, Farsca №. 69, s. 46.

6. Həzrət Əbdül-Bəha, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, *İlahi Ədalətin Gəlişi*, hissə. 40, s. 39.

7. Yenə orada.

8. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXXXVI, hissə. 6, s. 336.

9. Həzrət Bəhaullah, *Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhlər* (Wilmette: Bahá'í Publishing Trust, 1988, 2005 nəşri), №. 9.5, s. 138.

10. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXXXVII, hissə. 3, s. 338.

11. Yenə orada, CXXXII, hissə. 5, s. 327.

12. *Əbdül-Bəhanın Əhd və Vəsiyyətnaməsi* (Wilmette: Bahá'í Publishing Trust, 1944, 2013 nəşri), s. 26.

13. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, V, hissə. 5, s. 8.

14. 16 və 17 oktyabr 1911 tarixlərində edilən söhbət, *Paris Söhbətləri: Həzrət Əbdül-Bəhanın 1911 Xitabları*-nda çap edilib (Wilmette: Bahá'í Publishing, 2006, 2016 nəşri), №. 1.7, s. 6.

15. Həzrət Əbdül-Bəhanın 21 oktyabr 1911 tarixində etdiyi söhbətdən, yenə orada, №. 6.7, s. 22.

16. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXXV, hissə. 3, s. 300.

17. *Gizli Kəlamlar*, Ərəbcə №. 27, s. 10.

18. Yenə orada, Farsca №. 44, s. 37.

19. Yenə orada, Ərəbcə №. 26, s. 10.

20. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, LXX, hissə. 2, s. 154.



# Dua

## Məqsəd

Duanın vacibliyi üzərində düşünmək və müntəzəm dua etmək vərdişini gücləndirmək.

# BÖLMƏ 1

Ruhi İnstitutunun kursları iştirakçılara xidmət yolu ilə getməyə kömək etmək məqsədi daşıyır. Biz bu yolda ikili məqsəd hissinin sövqü ilə gedirik – ruhani və intellektual cəhətdən inkişaf etmək və cəmiyyətin transformasiyasına töhfə vermək. Bizim məqsədimizin bu iki aspekti bir-birindən ayrılmazdır. Həzrət Bəhaullah bir parçada bizə nəsihət edir:

**“Özünüzü öz qayğılarınızla məşğul etməyin; qoy düşüncələriniz bəşəriyyətin taleyini bərpa edəcək, insanların ürəklərini və ruhlarını arındıracaq şeylərə köklənsin.”**[1]

Başqa bir yerdə o belə aydınlaşdırır:

**“. . . fani insanların tam yoxluqdan varlıq aləminə qədəm qoymasının məqsədi odur ki, onlar dünyanın yaxşılaşdırılması üçün çalışsınlar və birlikdə razılıq və ahəng içində yaşasınlar.”**[2]

Bizim daxili halətimizlə əlaqədar O, bəyan edir:

**“Pak ürək bir güzgüdür; onu məhəbbət və Allahdan başqa hər şeydən arınmışlıq cilası ilə təmizləyin ki, həqiqi günəş orada parlasın və əbədi səhər açılsın.”**[3]

Həzrət Əbdül-Bəha isə bizə belə buyurur:

**“Sizin ürəyiniz pak və niyyətləriniz səmimi olmalıdır ki, ilahi bəxşişləri ala biləsiniz.”**[4]

1. Bizim düşüncə və qayğılarımız nəyin üzərində cəmləşməlidir? __________________

   ____________________________________________________________

   ____________________________________________________________

2. Biz tam yoxluqdan varlıq aləminə hansı məqsəd üçün qədəm qoymuşuq? __________

   ____________________________________________________________

   ____________________________________________________________

   ____________________________________________________________

3. Biz ürəyimizin güzgüsünü nə ilə təmizləməliyik? ____________________________

   ____________________________________________________________

4. İlahi bəxşişləri cəzb edən şərtlərdən bəziləri hansılardır? _______________________

   ____________________________________________________________

5. Aşağıdakıların hər hansı biri doğrudurmu?

– Siz gərək əvvəlcə öz qayğınıza qalasınız və sonra isə başqalarının qayğısına qala biləsiniz.

– Əgər siz həmişə başqalarına kömək edirsinizsə, son nəticədə siz öz hədəflərinizi gözdən qaçıracaqsınız.

– Sənin ən yaxın dostun sən özünsən.

– Ən vacib şey sizi nəyin xoşbəxt etdiyini tapmaqdır.

– Xəyallarınızın arxasınca gedin və onlar sizi xoşbəxtliyə aparacaq.

– Başqasını incitmədiyiniz müddətcə nə etdiyinizin əhəmiyyəti yoxdur.

– Yaxşı şeylər etdiyiniz müddətcə niyyətinizin xudbin olması normaldır.

## BÖLMƏ 2

İkili məqsədin başlıca tətminedici amili odur ki, bizim hamımız nəcib yaradılmışıq. Həzrət Bəhaullah buyurur:

> **“Ey ruh oğlu! Səni zəngin yaratdım, nə üçün yoxsulluğa yuvarlanırsan? Səni nəcib xəlq etdim, nə üçün özünü zəlil tutursan? Səni elm cövhərindən var etdim, nə üçün Məndə deyil, başqasında elm axtarırsan? Səni məhəbbət gilindən yoğurub-yapdım, necə Məndən qeyrisi ilə məşğulsan? İndi dön özünə bax ki, Məni özündə qüvvətli, qüdrətli və qəyyum dayanan tapasan.”**[5]

Aşağıdakı boş yerləri doldurmaq parçanın üzərində düşünməkdə sizə kömək edəcəkdir.

Ey ruh oğlu! Səni ________________ yaratdım, nə üçün ________________ yuvarlanırsan? Səni ________________________________, nə üçün özünü ______________________? Səni _____________________ var etdim, nə üçün ____________ deyil, başqasında __________________________? Səni _______________ gilindən ____________________________, necə Məndən ________________________________? İndi dön ______________________ ki, ________________________________________________________________ və ___________________________________________________.

Ruhumuzun nəcibliyinə sadiq qalmaq üçün biz varlığımızın Mənbəyinə üz tutmalı və Ondan aydınlanma axtarmalıyıq. Buna nail olmağın ən inandırıcı yollarından biri dua etməkdir. Əmrin Vəlisi Şövqi Əfəndi bizə buyurur ki, duanın əsas məqsədi “ruhani fəzilətlər və güclər əldə edilməsi ilə fərdin və cəmiyyətin inkişafıdır. Hər şeydən əvvəl məhz insanın ruhu qidalandırılmalıdır. Bu ruhani bəsləyici qidanı isə ən yaxşı şəkildə dua təmin edə bilər.”[6]

## BÖLMƏ 3

Allah hər şeyi Bilən və Ən Hikmətlidir. O, bizi yaratmışdır və ürəyimizdəkiləri və bizim üçün nəyin yaxşı olduğunu bilir. Onun bizim dualarımıza ehtiyacı yoxdur. Bəs onda nə üçün biz dua edirik?

Həzrət Əbdül-Bəha təsdiq edir:

> **"Ən ülvi duada insanlar Allahdan və ya cəhənnəmdən qorxduğuna, yaxud da nemət və ya cənnətə yetişəcəyinə ümid etdiyinə görə deyil, yalnız Allaha məhəbbət xatirinə dua edirlər... İnsan bir insana vurularkən öz sevgilisinin adını anmaması mümkün deyil. İlahi eşqə yetişəndə Onun Adını çəkmək istəyindən özünü saxlamaq ondan da çətindir... Ruhaniyyətə yetişmiş insan Allahı zikr etməkdən başqa heç bir şeydə həzz tapmaz."**[7]

Bir suala cavabında isə O belə izah edir:

> **"Əgər bir dost digərini sevirsə, onun bunu söyləmək istəyi təbii deyilmi? Dostunun onun sevgisindən xəbərdar olduğunu bilsə belə, o, yenə də bunu ona demək istəmirmi?... Bu doğrudur ki, Allah bütün ürəklərin arzusunu bilir; fəqət dua etmək istəyi də təbiidir, bu, insanın Allaha olan məhəbbətindən doğur."**[8]

1. Aşağıdakı cümlələri tamamlayın:

   a. ________________ duada biz Allahdan və ya ________________ ________________, yaxud da __________ və ya ________________ ________________________ ümid etdiyimizə görə deyil, yalnız Allaha ________________________________________.

   b. Biz başqa bir insana ________________ öz ________________ ______________ anmamağımız ____________________________________.

   ________________________ yetişəndə Onun ______________ çəkmək ______________ özümüzü saxlamaq ________________________________ .

   c. Ruhaniyyətə yetişmiş insan Allahı ______________________ başqa heç bir şeydə ____________________________.

2. Nə üçün biz dua edirik? ____________________________________________
   ________________________________________________________________

3. "Allahı zikr etmək" ifadəsi nə deməkdir? ______________________________
   ________________________________________________________________

4. Başqa birini sevən bir şəxsin ən şövqlü arzusu nədir? ______________________
   ________________________________________________________________

5. Dua etmək istəyi nədən doğur? ______________________________________________

______________________________________________________________________

## BÖLMƏ 4

Həzrət Bəhaullahın nazil etdiyi bir duada biz oxuyuruq:

**"Səni and verirəm... mənim namazımı atəşə çevir ki, Sənin Camalını görməkdən məni məhrum edən pərdələri yandırsın və nura çevir ki, məni Sənin Vüsal dənizinə yönəltsin."[9]**

Eyni duada biz Allahdan diləyirik:

**"Mənim namazımı, Ey mənim Rəbbim, dirilik kövsəri eylə ki, mən onunla Sənin səltənətin durduqca yaşayım və Sənin bütün aləmlərində Səni zikr eyləyim."[10]**

1. Dua hansı mənada atəşə bənzəyə bilər? O, nəyi yandırır? ______________________

______________________________________________________________________

2. Bizi Allahdan ayıran bəzi pərdələri sadalayın: ______________________________

______________________________________________________________________

______________________________________________________________________

3. Dua nur kimi ola bilərmi? O, bizi haraya aparır? ____________________________

______________________________________________________________________

______________________________________________________________________

4. Dua dirilik kövsəri ola bilərmi? O bizim ruhumuza nə bəxş edir? ________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

## BÖLMƏ 5

Həzrət Əbdül-Bəhanın aşağıdakı sözlərini oxuyun və üzərində düşünün:

**"Mövcudat dünyasında duadan daha şirin bir şey yoxdur. İnsan dua halətində yaşamalıdır. Ən mübarək vəziyyət dua və yalvarış vəziyyətidir. Dua Allahla söhbətdir. Ən böyük ərmişlik və ən şirin halət Allahla söhbətdən başqa bir şey deyil. O, ruhaniyyət, zehinlilik və ilahi hisslər yaradır, Mələkutun yeni cazibələrini törədir və daha yüksək zəka həssasiyyəti doğurur."[11]**

1. Mövcudat dünyasında ən şirin halət hansıdır? ______________________________

______________________________________________________________

2. “Dua haləti” ifadəsi nə deməkdir? ______________________________

______________________________________________________________

______________________________________________________________

3. Dua etməklə yaranan bəzi sifətləri qeyd edin: ______________________________

______________________________________________________________

______________________________________________________________

4. Bu bir neçə bölmədə öyrənmiş olduğunuz sitatları nəzərdən keçirin və duanın təbiəti barədə beş ifadə yazın:

   - Dua ______________________________________________________
   - Dua ______________________________________________________
   - Dua ______________________________________________________
   - Dua ______________________________________________________
   - Dua ______________________________________________________

## BÖLMƏ 6

Həzrət Bəhaullahın aşağıdakı sözlərini oxuyun və üzərində düşünün:

**“Allahın ayələrindən sənə yetişənləri, ey Mənim bəndəm, Ona yaxın kəslərin tərənnümü ilə oxu, qoy nəğmələrinin şirinliyi sənin öz qəlbini alovlandırsın və bütün insanların ürəyini cəzb etsin. Bir kəs Allahın nazil etdiyi ayələri öz hücrəsində təklikdə belə oxusa, Qüdrətlinin gəzərgi mələkləri onun dodaqlarının söylədiyi sözlərin ətrini hər yana yayar və bununla da bütün mömin könüllər yerindən oynar. O, əvvəlcə onların təsirindən bixəbər ola bilər, lakin ona inayət edilmiş mərhəmətin gücü gec-tez onun ruhuna öz təsirini göstərər. İlahi Vəhyin sirləri qüdrət və hikmət Məşriqi olan Kəsin İradəsinin gücü ilə belə müəyyən olunmuşdur.”**[12]

1. “Tərənnüm” sözü nə deməkdir? ______________________________

______________________________________________________________

2. Allahın ayələrini biz tərənnümlə necə oxumalıyıq? ______________________________

______________________________________________________________

______________________________________________________________

3. “Oxumaq” nə deməkdir? ______________________________

______________________________

4. “Yaymaq” nə deməkdir? ______________________________

______________________________

5. Bizim nəğmələrimizin şirinliyi bizim öz qəlbimizə necə təsir edəcəkdir?__________

______________________________

6. Bizim nəğmələrimizin şirinliyi başqalarının ürəyinə necə təsir edəcəkdir?_________

______________________________

______________________________

## BÖLMƏ 7

Siz Həzrət Bəhaullahın nazil etdiyi bir duadan aşağıdakı iki parçanı əzbərləmək istəyə bilərsiniz:

> **“Ey Allah, mənim Allahım! Mənim arzu və əməllərimə baxma, Özünün göyləri və yeri bürüyən iradənə bax. Sənin Ən Böyük Adına and olsun, Ey ümmətlərin Maliki! Mən yalnız onu istəmişəm ki, Sən istəmisən və yalnız onu sevirəm ki, Sən sevirsən.”**[13]

> **“Sən Sənə yaxın olanların tərifinin Sənin yaxınlıq göyünə ucalmasından yaxud Sənə sadiq olanların könül quşlarının Sənin dərgahının qapısına yetişməsindən çox yüksəksən. Şəhadət verirəm ki, Sən bütün sifətlərdən pak və bütün adlardan müqəddəssən. Səndən başqa Allah yoxdur. Sən Ən Uca və Ən Cəlallısan.”**[14]

## BÖLMƏ 8

Həzrət Əbdül-Bəha buyurur:

> **“Bəndə gərək Allaha dua edib yardım istəsin, Onun köməyi üçün yalvarsın və iltimas etsin. Bəndəliyin məqamına belə yaraşır, Rəbb isə istədiyi kimi, Özünün sonsuz hikmətinə uyğun olaraq hökm verəcək.”**[15]

Daha sonra O, izah edir:

> **“Ruh təsir gücünə malikdir; duanın isə ruhani təsiri vardır. Ona görə də biz dua edirik, “Ya Rəbb! Bu xəstəyə şəfa ver!” Ola bilsin ki, Allah cavab versin. Bəs kimin dua etməsinin fərqi varmı? Əgər dua acildirsə, Allah hər bir bəndənin duasına cavab verəcəkdir. Onun mərhəməti geniş və hüdudsuzdur. O, bütün bəndələrinin dualarına cavab verir. O, bu bitkinin duasına cavab verir. Bitki öz-**

**özlüyündə dua edir: "Ya Rəbb! Mənə yağış göndər!" Allah bu duaya cavab verir və bitki boy atır. Allah hamıya cavab verər."[16]**

Bu təbiidir ki, dualarımızda biz Allahdan ehtiyaclarımızın təmin olunmasını diləyirik. Beləliklə biz öz sağlamlığımız və sevdiklərimizin sağlamlığı üçün dua edirik, ailələrimizin ruhani və maddi tərəqqisi üçün dua edirik və biz hidayət olunmaq üçün dua edirik. Biz güc, iman və xidmət yolunda təyid istəyirik. Əlbəttə, Allaha dua edərəkən biz yadda saxlamalıyıq ki, həyatda bizim məqsədimiz öz iradəmizi Onun İradəsinə uyğunlaşdırmaqdır. Ona görə də, Biz Onun İradəsinin həyata keçməsi üçün dua etməli və ona təslim olmağa hazır olmalıyıq. Əgər siz Həzrət Əbdül-Bəhanın aşağıdakı sözlərini yadınızda saxlasanız, onlar həmişə sizə sevinc və səbat qaynağı kimi xidmət edəcək:

**"Ey Allaha üz tutan kəs! Gözlərini Ondan başqa hər şeyə yum və Əbha səltənətinə aç. Hər nə istərsən, Ondan istə; hər nə dilərsən, Ondan dilə. Bir baxışla O, yüz min ümid verər, bir nəzərlə yüz min dərmansız dərdə əlac eylər, bir işarə ilə hər yaraya məlhəm qoyar, bir təvəccöh ilə ürəkləri qəm qandalından azad edər. O etdiyini edər, biz nə edə bilərik? O, istədiyini edir, istədiyinə hökm verir. Elə isə təslim ol və Mərhəmət Sahibi Rəbbə təvəkkül et."[17]**

## BÖLMƏ 9

Bizim indiyə kimi öyrəndiyimiz hər şeydən aydın olur ki, duada Allaha üz tutmaq ruhani həyatın həyati vacib tələbatıdır. Səhər oyanandan qısa bir zaman sonra və axşam yuxuya getməzdən öncə Allaha dua etməyin ayrı bir şirinliyi var. Bizim hər gün dua etməyə sərf etdiyimiz vaxt, söylədiyimiz duaların sayı bizim ehtiyaclarımızdan və ruhani yanğımızdan asılıdır. Hər bir halda biz Həzrət Bəhaullahın, Həzrət Babın və Həzrət Əbdül-Bəhanın izhar etdiyi çoxlu dualardan seçə bilərik. Bununla belə, Həzrət Bəhaullah həmçinin üç namaz nazil etmişdir. Şövqi Əfəndi buyurur:

**"Gündəlik namazlarının sayı üçdür. Ən qısası bir ayədən ibarətdir və iyirmi dörd saatda bir dəfə, günorta vaxtı qılınmalıdır. "Rəbb şahiddir ki, Ondan başqa Allah yoxdur" sözləri ilə başlayan orta namaz gündə üç dəfə – səhər, günorta və axşam qılınmalıdır. Üç namazdan ən müfəssəli olan böyük namaz iyirmi dörd saatda yalnız bir dəfə qılınmalıdır və hər kəs meyli çəkdiyi vaxtda onu qıla bilər.**

**İnanan bu üç namazdan istənilən birini seçməkdə tamamilə azaddır, lakin onlardan hər hansı birini qılmaq fərzdir və onları müşayiət olunduqları hansısa xüsusi göstərişlərə uyğun qılmalıdır."[18]**

Daha sonra o, davam edir:

**"Həzrət Bəhaullah bu namazlara Şəfa Duası, Əhməd Lövhü kimi bir neçə başqa məxsusi dualarla birikdə xüsusi güc və əhəmiyyət inayət etmişdir, və ona görə də onları belə qəbul etmək lazımdır, və inananlar onları sözsüz iman və əminliklə oxumalıdırlar ki, onların vasitəsilə Allahla daha yaxın ünsiyyətə girə bilsinlər və özlərini Onun qanun və hökmlərinə daha da tam uyğunlaşdırsınlar."[19]**

Həzrət Bəhaullahın nazil etdiyi üç namaz fərdi şəkildə qılınır. Müəyyən ayinlərə uyğun olaraq qılınan camaat namazı Bəhai dinində yoxdur. Cənazə namazı Bəhai qanunlarına görə yeganə cəm halında qılınan namazdır. Bu namaz dəfndən əvvəl orada olan şəxslərdən biri tərəfindən oxunur, qalanları isə sükut edib dayanırlar.

1. Fərz nə deməkdir? ______________________________

______________________________

2. Həzrət Bəhaullah gündəlik qılınan neçə namaz nazil etmişdir?______________

______________________________

3. Hər üç namazı hər gün qılmalıyıqmı? ______________________________

4. Əgər biz böyük namazı seçsək, onu hər gün neçə dəfə qılmalıyıq?____________

5. Əgər biz orta namazı seçsək, onu hər gün neçə dəfə qılmalıyıq?_____________

6. Əgər biz qısa namazı seçsək, onu gündə neçə dəfə qılmalıyıq?______________

7. Xüsusi gücü olan bəzi duaları sadalayın: ______________________________

______________________________

______________________________

8. Əgər hələ etməmisinizsə, qısa namazı əzbərləyin:

> **"Ey mənim Allahım, Səni tanımaq və Sənə ibadət etmək üçün məni yaratdığına şəhadət verirəm. Bu anda öz acizliyimə və Sənin qüdrətinə, öz zəifliyimə və Sənin qüvvətinə, öz fəqirliyimə və Sənin zənginliyinə şəhadət verirəm.**
>
> **Səndən başqa Allah yoxdur, Sən İmdada Yetən və Qəyyumsan!"**[20]

9. Bu namazda biz nəyə şəhadət veririk? ______________________________

______________________________

______________________________

______________________________

## BÖLMƏ 10

Biz yadda saxlamalıyıq ki, namaza dair qanuna riayət etməklə aldığımız bərəkətə və digər duaları oxumaqla əldə etdiyimiz bəslənməyə əlavə olaraq, istər kiçik, istərsə də böyük yığıncaqlarda oxunan duaları eşidəndə bizim ruhumuz yüksəlir. Həzrət Bəhaullah bizə buyurur:

> **"Son dərəcə sevinc və yoldaşlıq içində bir yerə toplaşın və mərhəmətli Rəbb tərəfindən nazil edilmiş ayələri oxuyun. Bunu etməklə həqiqi bilik qapıları sizin**

**batini varlığınıza açılacaq və siz onda hiss edəcəksiniz ki, ruhunuz möhkəmlənir və ürəyiniz isə parlaq sevinclə dolur."**[21]

Bütün dünya boyunca dostların və qonşuların Allahla ünsiyyət etmək üçün bir araya gəldikləri dua yığıncaqlarının sayının minlərlə çoxalmasını bilməkdən böyük sevinc duyuruq. Ümumdünya Ədalət Evi yazır:

**"Dua görüşləri o yerlərdir ki, istənilən kəs gələ bilər, səmavi rayihələri duya bilər, duanın şirinliyini dada bilər, Yaradıcı Söz üzərində düşünə bilər, ruh qanadları üzərində uça bilər və yeganə Məhbubla ünsiyyət qura bilər. Bu zaman, xüsusilə belə vaxtlarda təbii olaraq baş verən və vasitəsilə "insan ürəyinin şəhəri"nin açıla bildiyi ruhani cəhətdən ülvi söhbətlərdə yoldaşlıq və müştərək iş hissləri yaranır."**[22]

Biz dua etmək istəyi hiss edəndə bir anlığa sakitcə gözləyirik ki, bu dünyaya aid olan şeylərdən fikirlərimizi təmizləyək. Dua edərkən biz düşüncələrimizi Allahda cəmləşdiririk. Duaları oxuyandan sonra biz bir müddət sakit qalır və dərhal başqa bir fəaliyyətə keçmirik. Eyni vəziyyət yığıncaqda başqalarının oxuduqları duaları eşidəndə də keçərlidir. Belə hallarda biz dua münasibətini saxlayır və sanki özümüz oxuyurmuşuq kimi sözləri yaxından izləyirik.

1. Allahın ayələrini oxuyarkən biz hansı ruhla bir yerə toplaşmalıyıq? ______________

   ________________________________________________________________

2. Allahın ayələrini oxumaq üçün bir yerə toplaşmağımızın hansı təsiri olacaqdır? ____

   ________________________________________________________________

   ________________________________________________________________

   ________________________________________________________________

3. Dua görüşləri o yerlərdir ki, istənilən kəs

   – ______________________ ,

   – ____________________________________________ ,

   – ____________________________________________ ,

   – ____________________________________________ ,

   – ____________________________________________________________________ və

   – ____________________________________________________________________.

4. Dua görüşlərində hansı hisslər yaranır? ______________________________________

   ________________________________________________________________

5. Dua görüşlərində təbii olaraq baş verən ruhani cəhətdən ülvi söhbətlərin təsiri nədir?

   ________________________________________________________________

6. İstər tək, istərsə də yığıncaqda dua edərkən göstərməli olduğumuz hörmətli münasibət barədə bir neçə söz yazın.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

## BÖLMƏ 11

Bu kitabın birinci fəsli hər gün Yazılardan parçalar oxumaq və onların mənası üzərində düşünmək vərdişi üzərində cəmləşib. Siz duanın mənası haqqında düşündünüz və nəticədə, gündəlik dua etmək vərdişini gücləndirdiniz. Öncəki bölmə icma sitayişinin vacibliyini sizin diqqətinizə çatdırdı. İndiyə kimi sizin öyrəndiklərinizin hamısı sizi, əgər arzu edirsinizsə, xidmət yolunda birinci hərəkəti icra etməyə hazırladı: dua görüşünə ev sahibliyi etmək.

İlkin addım kimi siz bir neçə dua əzbərləmək və onları bir neçə dostla bölüşmək imkanı tapmaq istəyə bilərsiniz. Eyni zamanda, bunu da təmin edə bilərsiniz ki, icmanızda ən azı bir dua görüşündə iştirak edəsiniz və onun şövqlü dəstəkçilərindən biri olasınız. Sonra isə, son nəticədə, dostlarınızı, ailə üzvlərinizi və qonşularınızı dua oxumaq və yoldaşlıq etmək üçün mütəmadi olaraq toplanmağa dəvət edərək özünüz dua görüşünə ev sahibliyi etmək qərarına gələ bilərsiniz. Bu kursun iki yaxud üç iştirakçısının belə bir dua görüşünü bir yerdə başlatmaları heç də nadir hal deyil.

Sizin təsəvvür etdiyiniz kimi, dua görüşünün necə təşkil olunması barədə heç bir düstur yoxdur. Lakin bu aydın şəkildə dostların bir görüşüdür ki, orada dua edilir, Yazılardan parçalar oxunur və ruhyüksəldici söhbətlər aparılır – hamısı da nəzərəçarpan ruhani bir atmosferdə. Dua görüşünə ev sahibliyi etmək kontekstində aşağıdakı ideyalardan hər biri barədə bir neçə söz deyə bilərsinizmi?

Hərarətli və sevgi dolu dəvət: ______________________________
______________________________________________
______________________________________________
______________________________________________

Xoş bir mühit yaradılması: ______________________________
______________________________________________
______________________________________________
______________________________________________

Dərin ehtiram atmosferinin saxlanması: ______________________________

_______________________________________________________________

_______________________________________________________________

_______________________________________________________________

Sevincli yoldaşlıq ruhunun yayılması: ______________________________

_______________________________________________________________

_______________________________________________________________

_______________________________________________________________

Ruhani cəhətdən ruhyüksəldici söhbətin təşviq edilməsi: ________________

_______________________________________________________________

_______________________________________________________________

_______________________________________________________________

# İSTİNADLAR


1. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr* (Wilmette: Bahá'í Publishing Trust, 1983, 2017 nəşri), XLIII, hissə. 4, s. 105.

2. Həzrət Bəhaullah, *Etibarlılıq: Bəhaullahın Yazılarından Seçmə Çıxarışlar*-da, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib edilib (London: Bahá'í Publishing Trust, 1987), №. 21, s. 5.

3. *İlahi Məhbubun Çağırışı: Həzrət Bəhaullahın Seçilmiş Sirli Əsərləri* (Hayfa: Bəhai Dünya Mərkəzi, 2018), №. 2.43, s. 31.

4. 5 may 1912 tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı: Həzrət Əbdül-Bəhanın 1912-ci ildə ABŞ və Kanadaya Səfəri Zamanı Çatdırdığı Söhbətlər*-də çap edilib (Wilmette: Bahá'í Publishing, 2012), s. 127.

5. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Wilmette: Bahá'í Publishing Trust, 2003, 2012 nəşri), Ərəbcə №. 13, s. 6–7.

6. 8 dekabr 1935 tarixində Şövqi Əfəndinin adından yazılmış məktubdan, Ümumdünya Ədalət Evinin Tədqiqat Departamenti tərəfindən tərtib olunmuş *Dua və Mömin Həyatı: Həzrət Bəhaullahın, Babın və Həzrət Əbdül-Bəhanın Yazılarından, Şövqi Əfəndinin Məktublarından və Ümumdünya Ədalət Evinin Çıxarışlardan Seçmələr*-də çap edilib (Wilmette: Bahá'í Publishing, 2019), №. 71, s. 31.

7. Həzrət Əbdül-Bəhanın Sözləri, J. E. Esslemont tərəfindən sitat gətirilib, *Bəhaullah və Yeni Era: Bəhai Dininə Giriş* (Wilmette: Bahá'í Publishing, 2006, 2017 nəşri), s. 106.

8. Yenə orada.

9. Həzrət Bəhaullah, *Bəhai Duaları: Həzrət Bəhaullahın, Babın və Həzrət Əbdül-Bəhanın Bəyan Etdiyi Dualardan Seçmələr*-də (Wilmette: Bahá'í Publishing Trust, 2002, 2017 nəşri), s. 7–8.

10. Yenə orada, s. 9.

11. Həzrət Əbdül-Bəhanın Sözləri, *Qərbin Ulduzu*-nda sitat gətirilib, cild. 8, №. 4 (17 May 1917), s. 41.

12. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, CXXXVI, hissə. 2, s. 334; həmçinin, Bəhai Duaları-nda, s. iii.

13. Həzrət Bəhaullah, *Bəhai Duaları*-nda, s. 8–9.

14. Yenə orada, s. 12.

15. Həzrət Əbdül-Bəha, *Dua və Mömin Həyatı*-nda, №. 24, s. 7.

16. Həzrət Əbdül-Bəha tərəfindən 5 avqust 1912 tarixində edilmiş söhbət, *Ümumdünya Sülhünün Elanı*-nda çap edilib, s. 345.

17. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr* (Wilmette: Bahá'í Publishing, 2010, 2015 nəşri), №. 22.1, s. 75–76.

18. Şövqi Əfəndinin adından 10 yanvar 1936 tarixində yazılmış məktubdan, *Dua və Mömin Həyatı*-nda çap edilib, , №. 61, s. 25.

19. Şövqi Əfəndinin adından 10 yanvar 1936 tarixində yazılmış məktubdan, *Bəhai Duaları*-nda sitat gətirilib, s. 301.

20. Həzrət Bəhaullah, *Bəhai Duaları*-nda, s. 4.

21. Həzrət Bəhaullah, *Dua və Mömin Həyatı*-nda, №. 68, s. 29 .

22. 29 dekabr 2015 tarixli müraciətdən, *Hərəkət Çərçivəsi: 2006-2016 Ümumdünya Ədalət Evinin Seçilmiş Müraciətləri və Əlavə Material*-da çap edilib (West Palm Beach: Palabra Publications, 2017), №. 35.49, s. 232.



# Həyat və Ölüm

## Məqsəd

Həyatın sadəcə bu dünyanın dəyişiklik
və hadisələrindən ibarət olmadığını,
onun həqiqi mənasının ruhun
inkişafında olmasını başa düşmək

## BÖLMƏ 1

İnsan ruhu materiya və fiziki dünyanın fövqündədir. Çıxışlarının birində Həzrət Əbdül-Bəha izah edir:

> **“Bu maddi cisimlər atomlardan təşkil olunmuşdur; bu atomlar bir-birindən ayrılmağa başladıqda parçalanma işə düşür, sonra isə bizim ölüm dediyimiz şey baş verir…**
>
> **Ruh ilə bu fərqlidir. Ruh elementlərin birləşməsi deyil, o, çoxlu sayda atomlardan təşkil edilməmişdir, o, vahid bölünməz substansiyadan ibarətdir və ona görə də əbədidir. O, fiziki yaradılışın nizamından tamamilə kənardır; o, ölümsüzdür!”**[1]

1. “Təşkil edilmək” nə deməkdir? ____________________________________________

2. İnsan ruhu da maddi cisimlər kimi müxtəlif elementlərdən təşkil olunmuşdurmu? ______________________________________________________________________

3. İnsan ruhu fiziki varlıqdırmı? ____________________________________________

## BÖLMƏ 2

Əmrin Vəlisinin adından yazılmış bir məktub təsdiq edir ki, “insanın ruhu mayalanma zamanı varlıq əldə edir.”[2] “Mayalanma” sözünün mənası barədə suala cavab verərək Ümumdünya Ədalət Evi qeyd edir:

> **“Bəhai Yazılarında “mayalanma” kimi təsvir edilən hadisənin bioloji anını və təbiətini dəqiqliklə müəyyən edən heç nə tapılmamışdır. Bu istilahın tibbi kontekstdə istifadəsinin də qeyri-dəqiq olması üzə çıxır. Doğrudan da, mayalanma barədə anlayışın biri budur ki, o, döllənmə ilə üst-üstə düşür; başqa bir anlayış da budur ki, o, döllənmə və implantasiyadan sonra, hamiləliyin əvvəlində baş verir. Beləliklə, ruhun maddi forma ilə əlaqəsinin nə vaxt baş verdiyini bilmək mümkün olmaya bilər və belə suallar insan düşüncəsi və ya araşdırma ilə həll olunmaya bilər, çünki onlar ruhani aləmin sirlərinə və ruhun özünün təbiətinə aiddir.”**[3]

1. İnsan ruhu nə zaman varlıq əldə edir? ______________________________________
   ______________________________________________________________________

2. “Mayalanma” istilahı dəqiq bir bioloji anı təsvir edirmi? ______________________

## BÖLMƏ 3

Ruhla bədən arasındakı əlaqə maddi deyildir; ruh bədənə daxil olmur və ya onu tərk etmir, fiziki məkan tutmur. Onun bədənlə əlaqəsi işığın onu əks etdirən güzgü ilə münasibəti kimidir. Güzgüdə əks olunan işıq onun içində deyil. Eynilə, ruh bədənin daxilində deyil. Həzrət Əbdül-Bəhanın buyurduğu kimi,

> **“Rasional qəlb və ya insan ruhu fitrətən bağlılıqla bu bədən vasitəsilə mövcud olmur – yəni ruh bədənə daxil olmur; zira bağlanmaq və daxil olmaq bədənin xüsusiyyətləridir, rasional qəlb isə bundan arınmışdır. O, başlamaq üçün heç vaxt bu bədənə daxil olmamışdır ki, onu tərk edəndə də başqa bir məkana ehtiyacı olsun. Xeyr, ruhun bədənlə əlaqəsi çırağın güzgü ilə əlaqəsi kimidir. Əgər güzgü cilalı və mükəmməldirsə, çırağın işığı onda görünür və əgər güzgü sınmışsa yaxud tozla örtülmüşsə, işıq gizli qalır.”[4]**

1. Aşağıdakı cümlələrdəki boş yerləri doldurun.

   a. Rasional qəlb və ya ________________________________ fitrətən bağlılıqla bu bədən vasitəsilə mövcud olmur – yəni ruh ______________________________.

   b. ______________________ və ya insan ruhu bədənə daxil olmur; zira bağlanmaq və daxil olmaq _______________________________________, rasional qəlb isə _________________________________.

   c. Ruh başlamaq üçün heç vaxt __________________________________________ ki, onu tərk edəndə də ______________________________________________.

   d. Ruhun bədənlə əlaqəsi ___________________________________ əlaqəsi kimidir.

   e. Əgər güzgü cilalı və mükəmməldirsə, ________________________ onda görünür.

   f. Əgər güzgü sınmışsa yaxud tozla örtülmüşsə, _____________________________.

2. İndiyə kimi öyrəndiklərimizin əsasında aşağıdakıların doğru olub-olmadığını müəyyən edin:

   _____ Ruh fiziki dünyaya mənsub deyil.

   _____ Ruh bədənin daxilindədir.

   _____ Bədən ruhun sahibidir.

   _____ Ruh ölümsüzdür.

   _____ İnsan həyatı onun ruhu rüşeymlə birləşəndə başlayır.

   _____ Həyat insan bu dünyaya doğulanda başlayır.

   _____ İnsanın maddi mövcudluğu ölümdən sonra davam edir.

   _____ Həyat hər gün bizim başımıza gələn şeylərdən ibarətdir.

3. Ruhla bədən arasındakı əlaqəni təsvir etmək üçün işıq və güzgü obrazından istifadə edin: ____________________

____________________

____________________

____________________

____________________

## BÖLMƏ 4

Birlikdə insan varlığını təşkil edən ruhla bədən arasında xüsusi əlaqə var. Bu əlaqə ancaq fani həyat boyunca davam edir. Onlar arasında rabitə kəsiləndə hər biri öz mənşəyinə qayıdır – bədən torpaq dünyasına, ruh isə Allahın ruhani aləmlərinə və orada tərəqqisini davam etdirir. Həzrət Əbdül-Bəha təsdiq edir:

**"İnsan ruhunun əvvəli var, lakin sonu yoxdur: O, əbədi olaraq qalır."[5]**

Çıxışlarının birində O aydınlaşdırır:

**"Ruhun bədənə ehtiyacı yoxdur, lakin bədənin ruha ehtiyacı var, yoxsa o, yaşaya bilməz. Ruh bədənsiz yaşaya bilər, amma bədən ruh olmadan ölür."[6]**

Əmrin Vəlisi izah edir:

**"İnsanın ruhu barədə: Bəhai Təlimlərinə uyğun olaraq insan ruhu insan rüşeyminin formalaşması ilə başlayır, inkişaf etməkdə davam edir və bədəndən ayrıldıqdan sonra sonsuz mövcudluq mərhələlərindən keçir. Beləliklə, onun tərəqqisi sonsuzdur."[7]**

1. Yuxarıdakı sitatları yadda saxlayaraq, aşağıdakı suallara cavab verin:

   a. Bədənin ruha ehtiyacı varmı? ____________________

   b. Ruhun bədənə ehtiyacı varmı?____________________

   c. Biz öləndə bədənlə ruh arasındakı əlaqəyə nə olur? ____________________

   ____________________

   d. Ölümdən sonra ruhla nə baş verir? ____________________

   ____________________

   e. Ruhun tərəqqisi nə qədər davam edir?____________________

   ____________________

   f. Həyat nə zaman sona yetir?____________________

   ____________________

2. Aşağıdakılardan hansıların bizim bu bölmədə öyrəndiklərimizlə uyğun olduğuna qərar verin:

_____ Ölüm cəzadır.

_____ Bədənlə ruh arasındakı əlaqə ancaq fani həyat boyunca davam edir.

_____ Bədən əbədi tərəqqi etməyə qadirdir.

_____ Ruh daim tərəqqi edəcəkdir.

_____ Ölüm həyatın sonudur.

_____ Bir haqq-hesab günü olacaq ki, onda bədənlərimiz qəbirdən qalxacaq.

_____ İnsan öləndə ruh əvvəlkindən daha çox azadlığa malik olur.

_____ Həyat ölümlə sona yetir.

_____ Biz gərək ölümdən qorxaq.

_____ Qida, geyim, dinclik və istirahət ruh üçün zəruridir.

_____ Bədən öz enerjisini tükədəndə ruh yorulur.

_____ Bədənin xəstəliyi və ya zəifliyi ruha təsir etmir.

_____ Ölümdən sonra da insanın fiziki ehtiyacları olacaqdır.

## BÖLMƏ 5

Biz gördük ki, ruh fiziki məkan tutmur və maddi varlıqlardan fərqli olaraq təbiət qanunlarına tabe olmur. Ruh dünyaya bədən vasitəsilə təsir buraxır, lakin bu, ruhun öz gücünü göstərdiyi yeganə vasitə deyil. Həzrət Bəhaullah bəyan edir:

> **“Həqiqətən, Mən deyirəm, insan ruhu bütün çıxış və girişlərdən ucadır. O, sakitdir, amma uçur; o, hərəkət edir, lakin sükunətdədir.”**[8]

Həzrət Əbdül-Bəha isə bizə belə buyurur:

> **“Bilin ki, insan ruhunun təsiri və qavrayışı iki cürdür; yəni, insan ruhu iki tərzdə iş və anlayışa malikdir. Bir tərz cismani alətlər və orqanlar vasitəsilədir. Belə ki, o, gözlə görür, qulaqla eşidir, dillə danışır…**
>
> **Ruhun təsirinin və hərəkətinin digər tərzi isə bu cismani alətlər və orqanlarsız olur.”**[9]

1. Aşağıdakı cümlələrdə boş yerləri doldurun:

   a. İnsan ruhu bütün _________________ və __________________ ucadır.

   b. O, ________________, amma _____________________.

   c. O, _______________________, lakin _____________________.

2. Ruhun bu dünyada təsir göstərdiyi və qavradığı iki yolu təsvir edin: _____________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

3. Cismani alətlər olmadan ruhun təsiri və hərəkətinə aid misallar verə bilərsinizmi?

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

## BÖLMƏ 6

İndi isə əvvəlki bölmədə olan müzakirənin işığında Həzrət Bəhaullahın Yazılarından aşağıdakı parçanı oxuyun:

> **"Bilin ki, insan ruhu bədənin və ya əqlin bütün kövrəkliklərindən ucadır və onlardan asılı deyil. Xəstə insanın zəiflik göstərməsi bədənlə ruh arasında olan müxtəlif maneələrdən doğur, çünki hər hansı cismani xəstəliklər ruhun özünə təsir etmir. Çırağın işığına diqqət yetirin. Hərçənd xarici əşya onun şöləsinə mane ola bilər, amma işığın özü azalmayan güclə parlamağa davam edir. Eləcə də insanın bədəninə yoluxan hər bir xəstəlik ruhun fitrətən malik olduğu qüdrət və gücün aşkara çıxmasının qarşısını alan əngəldir. Lakin ruh bədəni tərk etdikdə, o, elə bir üstünlük göstərəcək, elə bir təsir aşkara çıxaracaq ki, yer üzündə heç bir güc ona bərabər ola bilməz. Hər bir pak, arınmış və müqəddəs ruha böyük güc əta ediləcək və hədsiz şadlıq içərisində olacaq."**[10]

1. Ruhun bədənin və ya əqlin kövrəkliklərindən necə təsirlənmədiyini və onun bədəndən ayrıldıqdan sonra nəyin aşkar olacağını öz sözlərinizlə izah edin.

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

2. Fiziki bədənlərimizin ölümündən sonra biz fərdiliyimizi saxlayacağıqmı?_________

## BÖLMƏ 7

Həzrət Bəhaullah bizə söyləyir:

**“İndi də sənin insanın ruhu və ölümdən sonra onun yaşaması barədə sualına dair. Bu həqiqəti bil ki, ruh bədəndən ayrıldıqdan sonra öz tərəqqisini Allahın hüzuruna yetişənə kimi elə bir halda və şəraitdə davam etdirəcək ki, nə dövrlərin və əsrlərin gərdişi, nə də bu dünyanın dəyişiklik və qəzavü-qədəri onu dəyişə bilməz. Allahın Mələkutu, Onun Hökmranlığı, Onun Səltənəti və iqtidarı mövcud olduqca ruh da mövcud olacaqdır. O, Allahın əlamətlərini və Onun sifətlərini təzahür etdirəcək və Allahın inayətini və lütfünü üzə çıxaracaqdır.”**[11]

1. Ruh fiziki ölümdən sonra tərəqqisini nə qədər davam etdirəcəkdir? ______________
______________________________________________________________________

2. Hansı halətdə ruh Allahın hüzuruna yetişməyə doğru əbədi səyahətini davam etdirəcəkdir? ________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

3. O halətdə ruhun təzahür etdirəcəyi bəzi sifətlər və əlamətlər hansılardır?__________
______________________________________________________________________
______________________________________________________________________

4. Bizim indiyə kimi öyrəndiklərimizin əsasında aşağıdakıların doğru olub olmadığını müəyyən edin:

_____ Allahın Mələkutu əbədi davam edəcək.

_____ Ruh Allahın sifətlərini təzahür etdirmək qabiliyyətinə malikdir.

_____ Vəfat edənlər üçün bizim etdiyimiz dualar onların tərəqqisinə təsir etmir.

_____ Ruhun mövcudluğu heç vaxt dayanmır.

## BÖLMƏ 8

Həzrət Bəhaullah bəyan edir:

**“Bil ki, hər bir eşidən qulaq, əgər o pakdırsa və çirklənməmişsə, hər zaman və hər tərəfdən bu müqəddəs sözləri bəyan edən səsi eşitməlidir: “Həqiqətən, biz Allahdanıq və Ona da qayıdacağıq”. İnsanın cismani ölümünün və onun qayıtmasının sirləri açılmamışdır və hələ də oxunmamış qalır…**

**Ölüm hər əmin inanana həqiqətdə həyatın özü olan qədəh təqdim edir. O, sevinc bəxş edir və şadlıq müjdəçisidir. O, əbədi həyat bəxş edir.**

**İnsanın yerdəki mövcudluğunun meyvəsini dadmış, yəni tək Haqqı (tərifi ucalsın Onun) tanımış kəslərə gəldikdə isə, onların sonrakı həyatı elədir ki, Biz onu təsvir etməyə qadir deyilik. Bunun biliyi yalnız bütün aləmlərin Rəbbi olan Allahdadır.”**[12]

**“Ey uca məqam oğlu! Ölümü sənin üçün bir şadlıq müjdəçisi etdim. Nə üçün ondan hüznlənirsən? İşığı sənə şəfəq saçmaq üçün yaratdım. Nə üçün ondan pərdələnirsən?”**[13]

1. Aşağıdakı müddəalardan hansılar doğrudur?

_____ İnsan varlığının ruhu Allahdan gəlir və Ona qayıdacaq.

_____ Ölümdən sonrakı həyat haqqında bütün bilik Allahın yanındadır.

_____ Əmin inanan üçün ölüm həyatdır.

_____ Ölüm şadlıq müjdəçisidir.

_____ Ölümün sirləri hamıya məlumdur.

_____ Biz həyatın nemətlərini qiymətləndirməliyik, amma ölümdən də qorxmamalıyıq, çünki o, şadlıq müjdəçisidir.

_____ Ölümdən sonrakı həyat haqqında bilmək bizim üçün vacib deyil.

2. İndi isə bu bölmələrdə öyrəndiklərimizi yadda saxlayaraq həyat, ölüm, bədən və ruh haqqında qısa bir paraqraf yazın.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

## BÖLMƏ 9

Həzrət Əbdül-Bəha izah edir:

**"İnsan öz həyatının başlanğıcında ana bətni dünyasında rüşeym halında idi ki, orada o, bu dünyaya gəlməsi üçün qabiliyyət və dəyər aldı. O, bu dünya üçün zəruri olan gücləri o dünyada əldə etdi. Bu dünyada ona gözlər lazım idi; onları o, ana bətni dünyasında aldı. Bu dünyada ona qulaqlar lazım idi; o, onları orada əldə etdi. Bu dünyada lazım olan bütün gücləri o, ana bətni dünyasında aldı. O dünyada o, bu dünya üçün hazırlandı. O, bu dünyaya daxil olanda isə gördü ki, lazım olan bütün güclərə malikdir və bu həyat üçün zəruri olan bütün üzv və orqanları o dünyada almışdır. Buradan belə çıxır ki, bu dünyada da o, o biri dünya üçün hazırlanmalıdır. Mələkut aləmində ona nə lazımdırsa burada əldə etməli və hazırlamalıdır. Bu dünya üçün lazım olan gücləri ana bətni dünyasında aldığı kimi, eynilə də, Mələkut aləmində ehtiyacı olacağı şeyləri – yəni bütün səmavi gücləri – bu dünyada qazanmalıdır."**[14]

1. Aşağıdakıların doğru olub-olmadığı barədə qərar verin:

   _____ Bu dünya üçün zəruri olan bütün güclər ana bətni dünyasında əldə edilir.

   _____ Özünü o biri dünya üçün hazırlamağa ehtiyac yoxdur.

   _____ Mələkut aləmi üçün bizə lazım olanlar orada əldə edilməlidir.

   _____ Bu həyatın məqsədi növbəti dünyadakı həyat üçün zəruri olan gücləri əldə etməkdir.

   _____ Həqiqi həyat insan ölüb ilahi Mələkuta gedəndə başlayır.

   _____ Həqiqi həyat bu dünyada başlayır və fiziki ölümdən sonra davam edir.

2. Ana bətni aləmində insanın aldığı bəzi qabiliyyətlər hansılardır? _________________

   ______________________________________________________________

   ______________________________________________________________

3. Ölümdən sonrakı həyat üçün bu dünyada alınması gərəkən və Allahın əta etdiyi bəzi bəxşişlər hansılardır? ____________________________________________

   ______________________________________________________________

## BÖLMƏ 10

Həzrət Bəhaullah bəyan edir:

**"Bu Gün insanın bütün vəzifəsi Allahın onun üçün yağdırdığı fəzl leysanından öz payını almaqdır. Ona görə də, qoy heç kəs qabların böyüklüyünə və ya kiçikliyinə fikir verməsin. Bəzilərinin payı bir ovuc, bəzilərininki bir kasa, digərlərininki də hətta bir küp ola bilər."**[15]

1. Yuxarıdakı sitatın işığında aşağıdakı suallara cavab verin:

a. Bu Gün hər bir insanın vəzifəsi nədir? ____________________________________
______________________________________________________________________

b. Sizin Allahdan almış olduğunuz bəzi nemətlər hansılardır? _________________
______________________________________________________________________
______________________________________________________________________

c. Yuxarıdakı sitatda "qab" sözü nəyə istinad edir? ___________________________
______________________________________________________________________

d. Biz nə üçün bizə əta edilmiş qabiliyyətin "böyüklüyünə və ya kiçikliyinə" fikir verməməliyik? _____________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

e. Allah fəzlindən öz payımızı almaqda bizə mane olan bəzi şeylər nələrdir? _____
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

2. Aşağıdakılardan hansılar doğrudur?

_____ Bizim qabiliyyətimizin "böyüklük və ya kiçikliyi" bizim necə ağıllı olmağımıza istinad edir.

_____ Allaha xidmət etmək üçün biz zəifliklərimizi unutmalı və bütünlüklə Ona etibar etməliyik.

_____ Əgər Allahın bizə bəxş etdiyi qabiliyyətləri bu dünyada inkişaf etdirməsək, növbəti dünyaya gələndə ruhlarımız zəif olacaq.

## BÖLMƏ 11

Həzrət Bəhaullah təsdiq edir:

**"Ruhun təbiəti barədə sual vermişdin. Yəqin bil ki, ruh Allahın bir əlamətidir və elə bir səmavi cövhərdir ki, insanlardan ən alimləri onun mahiyyətini dərk edə bilməmişdir və heç bir ağıl, nə qədər iti olsa da, onun sirrini aça bilməz. Ruh bütün yaradılmışlar arasında öz Yaradanının aliliyini bəyan edən, Onun cəlalını etiraf edən, Onun həqiqətinə yapışan və Onun hüzurunda səcdə edənlərin birincisidir."**[16]

1. Aşağıdakı cümlələrdə boş yerləri doldurun:

   a. Ruh Allahın ______________________.

   b. Ruh ______________________________________, insanlardan ən alimləri onun _________________ dərk edə bilməmişdir və heç bir ağıl, nə qədər iti olsa da, ___________________________________________.

   c. Ruh ______________________________________________________________ bəyan edənlərin _____________________.

   d. Ruh Allahın cəlalını ______________________________ birincisidir.

   e. Ruh Allahın həqiqətinə ____________________________ birincisidir.

   f. Ruh Allahın hüzurunda ____________________________ birincisidir.

2. Aşağıdakılardan hansılar doğrudur?

_____ "Açmaq" aydınlaşdırıb tapmaq deməkdir.

_____ Bütün yaradılmışlar içərisində Allahı birinci tanıyan insan beynidir.

_____ "İti" kəskin deməkdir.

_____ Alim insan ruhun sirrini anlayır.

_____ Ancaq böyük filosoflar Allahın aliliyini bəyan edə bilər.

_____ Ruh haqqında düşünmək zəruri deyil, çünki biz heç vaxt onu başa düşə bilməyəcəyik.

## BÖLMƏ 12

Həzrət Bəhaullah bəyan edir:

**"Siz o quşa bənzəyirsiniz ki, güclü qanadlarının bütün qüvvəsi ilə tam və sevincli bir arxayınlıq içərisində sonsuz səmalarda süzür, sonra aclığını qaldırmağa vadar olaraq yerdəki suya və torpağa can atır, lakin arzu və nəfs tələsinə düşdüyü üçün gəldiyi yerə, göylərə qalxmaq iqtidarında olmadığını görür. Çirklənmiş qanadların üzərindəki yükü təmizləyib ata bilmədiyi üçün, indiyə kimi göylər sakini olmuş bu quş indi torpaqda məskən axtarmağa məcbur olur. Odur ki, ey Mənim bəndələrim, öz qanadlarınızı qəflət və güman palçığı ilə çirkləndirməyin, onların həsəd və nifrət torpağına bulaşmasına imkan verməyin ki, Mənim ilahi elmimin səmalarında uçmaqdan məhrum olmayasınız."**[17]

1. Aşağıdakı cümlələri tamamlayın.

   a. Həzrət Bəhaullahın bu sitatda istinad etdiyi quş ___________________________ .

   b. Bu quş _________________________ sakinidir.

c. Əgər o quşun qanadları çirklənsə, o, _____________ yuva axtarmağa məcbur olur.

2. İndi isə aşağıdakı suallara cavab verin:

a. Ruhun “qanadları” necə “çirklənir”? ___________________________________

_______________________________________________________________

_______________________________________________________________

b. Bəzi yüklər hansılardır ki, “yerin suyu və torpağı” kimi ruhun qanadlarından asılır?

_______________________________________________________________

_______________________________________________________________

_______________________________________________________________

c. İlahi elmin səmalarında bizim uçmağımıza mane ola biləcək bəzi şeylər hansılardır?_____________________________________________________

_______________________________________________________________

_______________________________________________________________

d. Ruh nə üçün səmavi evini bu dünyanın torpağına dəyişərdi? ________________

_______________________________________________________________

_______________________________________________________________

3. Aşağıdakı müddəaların doğru olub-olmadığını müəyyən edin:

_____ Dünyəvi bağlılıqlar bizim ruhani tərəqqimizə mane olur.

_____ Bizim azğınlığımız və boş arzularımız ilahi elmin səmalarında uçmaqdan saxlayır.

_____ Həsəd və nifrət insan varlığının təbii xüsusiyyətləridir və ruha yük gətirmir.

_____ Biz bu dünyanın şeylərindən inqita etməklə göylərinənginliklərində pərvaz etməyimizə mane olan yüklərdən özümüzü azad edə bilərik.

_____ Ruhun evi bu dünyadadır.

## BÖLMƏ 13

Həzrət Bəhaullah buyurur:

**“Dünyanı, onda yaşayan və hərəkət edən hər şeyi yaratdıqdan sonra O, birbaşa Muxtar və Hökmran İradəsi ilə misilsiz üstünlük və qabiliyyət əta edərək Onu tanımaq və sevmək üçün insanı seçdi – bir qabiliyyət ki, bütün xilqətin əsasında dayanan yaradıcı təkan və ilkin məqsəd idi... O, yaradılmış hər bir şeyin batini mahiyyətinə Öz adlarından birinin işığını saldı və onu Öz sifətlərindən birinin cəlalına məzhər etdi. İnsanın mahiyyətində isə O, Özünün bütün ad və sifətlərinin**

**parlaqlığını cəmləşdirdi və onu Öz Zatının güzgüsünə çevirdi. Yaradılmış bütün şeylərdən yalnız insan bu böyük lütf və zavalagəlməz kəramət üçün seçildi.”[18]**

1. Aşağıdakı boş yerləri doldurun.

   a. Allah misilsiz üstünlük və qabiliyyət əta edərək ________________________ ________________________ üçün insanı seçdi.

   b. O, yaradılmış ______________________________________ batini mahiyyətinə ______________________________________________ işığını saldı və onu _____________________________________________________ məzhər etdi.

   c. İnsanın mahiyyətində isə O, __________________________________________ parlaqlığını cəmləşdirdi və ________________________________________ güzgüsünə çevirdi.

2. İndi isə aşağıdakı suallara cavab verin:

   a. Allahın bəzi sifətlərini qeyd edə bilərsinizmi? ___________________________
   _________________________________________________________________
   _________________________________________________________________

   b. İnsan ruhunun əks etdirəcəyi Allahın bəzi sifətləri hansılardır? ______________
   _________________________________________________________________
   _________________________________________________________________

   c. Bu sifətlər necə təzahür edə bilər?_____________________________________
   _________________________________________________________________
   _________________________________________________________________

   d. İnsan hansı xüsusi lütf üçün seçilmişdir?_______________________________
   _________________________________________________________________
   _________________________________________________________________

3. Aşağıdakılardan hansılar doğrudur?

_____ İnsan məxluqatın qalanından fərqli deyil.

_____ Allahı tanımaq və Onu sevmək qabiliyyəti bütün xilqətin əsasında dayanan yaradıcı təkan və ilkin məqsəddir.

_____ Hər bir yaradılmış şeyin mahiyyəti Allahın sifətlərindən birinə məzhər olmaqdır.

_____ İnsan ruhu Allahın bütün sifətlərini əks etdirə bilər.

## BÖLMƏ 14

Həzrət Bəhaullah bizə söyləyir:

**"Lakin İlahi kərəm Günəşinin və səmavi hidayət Mənbəyinin insanın mahiyyətində qoyduğu güclər gizlidir, necə ki, şölə şamın içində gizlidir və işıq şüaları çırağın mahiyyətində örtülüdür. Bu güclərin işığı dünyəvi arzularla tutula bilər, necə ki, günəşin nuru güzgünü örtmüş toz və pasın altında görünməz qalar. Nə bu şam, nə də bu çıraq öz-özünə yana bilməz, nə də ki, bu güzgü nə vaxtsa onu örtmüş tozdan özünü xilas edə bilər. Aydın və aşkardır ki, od yandırılmayınca çıraq heç vaxt alışmaz, toz güzgünün üzərindən silinməyincə onda günəşin nə əksi görünər, nə də işığı və cəlalı əks olunar."**[19]

1. "Gizlidir" sözünün mənası nədir? ______________________________
______________________________________________________

2. İnsan ruhunda gizli olan bəzi güclər hansılardır?______________________
______________________________________________________
______________________________________________________

3. Çırağın hansı potensialı var? ______________________________

4. Güzgünün hansı potensialı var? ______________________________

5. Siz çırağa nə etməlisiniz ki, o, işıq verə bilsin? ______________________
______________________________________________________

6. Siz güzgüyə nə etməlisiniz ki, o, işığı əks etdirə bilsin? __________________
______________________________________________________

7. Çıraq və güzgü öz potensiallarını özləri üzə çıxara bilərlərmi?______________

8. Biz bu iki misalı insan ruhuna necə aid edə bilərik? ____________________
______________________________________________________
______________________________________________________
______________________________________________________

9. İnsan ruhuna öz potensialını üzə çıxarmağa kim kömək edə bilər?____________
______________________________________________________
______________________________________________________

# BÖLMƏ 15

Həzrət Bəhaullah təsdiq edir:

**“Əzəli Varlığı tanımağın qapısı insanların üzünə daim bağlı olmuşdur və əbədiyyətə qədər də bağlı qalacaqdır. Heç bir insan anlayışı Onun müqəddəs dərgahına heç vaxt yol tapa bilməz. Amma öz mərhəmətinin bir nişanəsi və inayətinin bir sübutu olaraq O, Öz ilahi hidayət Günəşlərini və ilahi Birlik Rəmzlərini insanlara zahir etmiş və bu müqəddəs Varlıqların tanınmasını Özünün tanınmasına bərabər tutmuşdur. Onları tanıyan Allahı tanımışdır. Onların çağırışına qulaq verən Allahın Səsinə qulaq vermişdir və Onların vəhyinin həqiqətini təsdiq edən Allahın Özünün həqiqətini təsdiq etmişdir. Onlardan üz döndərən Allahdan üz döndərmişdir və Onlara inanmayan Allaha inanmamışdır. Onların hər biri Allahın bu dünyanı uca aləmlərlə bağlayan Yolu, yer və göy səltənətlərində hər kəsə Allahın həqiqətinin Tərəzisidirlər. Onlar Allahın insanlar arasında Məzhərləri, Onun Həqiqətinin dəlilləri və cəlalının əlamətləridir.”[20]**

1. Yuxardakı sitatı yadda saxlayaraq aşağıdakı suallara cavab verin:

   a. Allahı birbaşa tanımağımız mümkündürmü?______________________________

   b. Elə isə biz Allahı necə tanıya bilərik? ____________________________________

   ______________________________________________________________

   c. İlahi hidayət Günəşlərindən bəzilərinin adını deyə bilərsinizmi? _____________

   ______________________________________________________________

   d. Allahın Məzhərlərinə qulaq verənlər Kimin Səsini eşitmişlər?_______________

   ______________________________________________________________

   e. Allahın Məzhərlərinin çağırışına məhəl qoymayanda biz Kimdən üz döndərmiş oluruq?______________________________________________________

2. Aşağıdakı cümlələri tamamlayın:

   a. Əzəli Varlığı tanımağın qapısı ___________________________________ daim bağlı olmuşdur və əbədiyyətə qədər də bağlı qalacaqdır.

   b. Heç bir insan anlayışı ________________________________________ heç vaxt yol tapa bilməz.

   c. Allah Öz __________________________ nişanəsi və ______________________ sübutu olaraq Öz Məzhərlərini göndərir.

   d. Allahın Məzhərlərini tanımaq ___________________________________ eynidir.

   e. Onları tanıyan ______________________________________________________ .

f. Onların çağırışına qulaq verən ________________________________ .

g. Onların hər biri Allahın ________________________________
Yolu,________________________________________________
________________________________________________.

3. Aşağıdakılardan hansılar doğrudur?

_____ Biz ancaq öz səylərimizin hesabına ruhani cəhətdən inkişaf edə bilərik.

_____ Allah bizə ağıl vermişdir və bu, bizim tərəqqimiz üçün yetərlidir.

_____ Biz Allahın Məzhərini tanımaqla ruhani cəhətdən tərəqqi edəcəyik və çox səy göstərmək lazım olmayacaq.

_____ Biz Allahın Məzhərini tanımaqla və Onun təlimlərinə uyğun yaşamaq üçün səy göstərməklə ruhani cəhətdən tərəqqi edə bilərik.

_____ Biz Allahı birbaşa tanıya bilərik.

_____ İnsan elə Allah kimi ola bilər.

_____ Allah insan idrakından ucadır.

_____ Biz Allahın Məzhərinin sözlərinə qulaq asanda Allahın Səsinə qulaq asırıq.

## BÖLMƏ 16

Həzrət Bəhaullah bəyan edir:

**"Allahın Peyğəmbərləri və Elçiləri bəşəriyyəti Haqqın doğru Yoluna hidayət etmək kimi yeganə məqsəd üçün göndərilmişlər. Onların vəhyinin əsasında duran məqsəd bütün insanları tərbiyə etməkdir ki, onlar ölüm anında tam paklıq və müqəddəsliklə, mütləq inqita ilə Ən Ulu taxta yüksəlsinlər."[21]**

Başqa bir parçada isə O, buyurur:

**"İnsan ən ali Tilsimdir. Lakin lazımi təlim-tərbiyənin olmaması onu fitrətən malik olduqlarından məhrum etmişdir. Allahın ağzından çıxan bir kəlmə ilə o, xəlq edildi; başqa bir kəlmə ilə təlim-tərbiyəsinin Mənbəyini tanımağa istiqamətləndirildi; daha bir kəlmə ilə onun məqam və taleyi qorundu. Böyük Varlıq buyurur: insana qiymətli gövhərlərlə zəngin bir mədən kimi bax. Yalnız təlim-tərbiyə onun xəzinələrini aşkara çıxara bilər və insanlığın ondan faydalanmasına kömək edər. Əgər bir kəs Allahın müqəddəs İradə göyündən endirilmiş Kitabların nazil etdikləri üzərində düşünsə, o, asanlıqla dərk edər ki, onların məqsədi bütün insanları bir ruh hesab etməkdir ki, "Hökmranlıq Allaha məxsusdur" sözləri yazılmış möhür hər bir ürəkdə vurulsun və İlahi kərəm, fəzl və mərhəmət nuru bütün bəşəri bürüsün."[22]**

1. Allahın Peyğəmbərləri və Elçiləri hansı məqsəd üçün göndərilmişlər?____________
______________________________________________________________
______________________________________________________________

2. Onların vəhyinin əsasında hansı məqsəd durur? ____________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

3. “Tilsim” sözünün mənası nədir? ______________________________________
______________________________________________________________

4. Lazımi təlim-tərbiyənin olmamasının nəticəsi nədir? _______________________
______________________________________________________________

5. Lazımi təlim-təbiyə nəyə səbəb ola bilər? ________________________________
______________________________________________________________
______________________________________________________________

6. Bizim təlim-tərbiyəmizin Mənbəyi nədir? ________________________________

7. Bizim taleyimiz nədir? ______________________________________________
______________________________________________________________

8. Təlim-tərbiyənin açdığı bəzi gövhərlər hansılardır? _________________________
______________________________________________________________

9. Müqəddəs Yazılar üzərində düşünəndə biz nəyi asanlıqla dərk edirik?____________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

## BÖLMƏ 17

Həzrət Bəhaullah təsdiq edir:

**“Və bir də Məndən ruh bədəndən ayrıldıqdan sonra onun vəziyyəti barədə soruşmuşdun. Bu həqiqəti bil ki, əgər insanın ruhu Allahın yolu ilə getmişsə, o, şübhəsiz, Ona qayıdacaq və Məhbubun cəlalına qovuşacaq. Allahın həqqaniyyətinə**

**and olsun! O, elə bir məqama yetişəcək ki, onu nə qələm təsvir edə, nə də dil tərif edə bilər. Allahın Əmrinə sadiq qalan və Onun Yolunda səbatla duran ruh yüksəldikdən sonra elə bir qüvvə kəsb edər ki, Qüdrətlinin yaratdığı bütün aləmlər onun vasitəsilə feyz alar."**[23]

1. Aşağıdakı cümlələri tamamlayın:

   a. Əgər bir ruh Allahın yolu ilə getmişsə, o, şübhəsiz, ________________________ ______________________________________________________________ .

   b. O, elə bir məqama yetişəcək ki, ________________________________________ ________________________________.

   c. Allahın ____________________ və ________________________________ duran __________________________ sonra elə __________________________ kəsb edər ki, ________________________________ bütün aləmlər onun vasitəsilə ________________________.

## BÖLMƏ 18

Həzrət Bəhaullah bizə söyləyir:

**"Xoş o ruhun halına ki, bədəndən ayrılarkən dünya insanlarının gümanlarından pak olur. Belə bir ruh öz Yaradanının İradəsinə uyğun yaşayır, hərəkət edir və uca Cənnətə daxil olur. Behiştin Huriləri, yüksək köşklərin sakinləri onun ətrafına toplaşar, Allahın Peyğəmbərləri və övliyaları onunla həmsöhbət olmaq istəyər. O ruh onlarla azad şəkildə söhbət edər və aləmlərin Rəbbi olan Allahın yolunda başına gələnləri onlara danışar."**[24]

**"O, günahkarları bağışlamalı və onlara heç vaxt həqarətlə baxmamalıdır, çünki heç kəs öz aqibətinin nə olacağını bilmir. Nə qədər olub ki, günahkar ölüm anında iman cövhərinə yetişmişdir və əbədiyyət şərabını içərək Mələyi-Əlaya pərvaz etmişdir! Və nə qədər də olub ki, sadiq bir inanan ruhu yüksələrkən elə dəyişmişdir ki, cəhənnəm atəşinə düşmüşdür!"**[25]

1. Bədəndən ayrılarkən bizim ruhumuz hansı vəziyyətdə olmalıdır? _______________ ______________________________________________________________________

2. Bəzi gümanlar hansılardır?____________________________________________ ______________________________________________________________________ ______________________________________________________________________ ______________________________________________________________________

3. Gümanlardan pak olan ruh ölümdən sonra hansı vəziyyətdə yaşayacaq və hərəkət edəcək? ______

______

______

______

4. Belə ruhun yoldaşları kim olacaq? ______

______

5. Belə ruh Allahın Peyğəmbərləri və övliyaları ilə söhbət edə biləcəkmi? ______

______

6. Biz yer üzündə həyatımızın necə və nə vaxt sona yetəcəyini əvvəlcədən bilirikmi?

______

7. Bizim üçün müqəddər olmuş əbədi həyata yetişmək üçün biz indi nə edə bilərik? ______

______

______

## BÖLMƏ 19

Həzrət Əbdül-Bəha izah edir:

**“İnsan ruhu elementlərdən təşkil olunmuş vücudunu atdıqdan sonra əbədi yaşadığı üçün o, bütün mövcud şeylər kimi, şübhəsiz ki, tərəqqi etməyə qabildir və beləliklə, kimsə vəfat etmiş şəxsin ruhunun tərəqqisi, bağışlanması, yaxud ilahi lütflər, nemətlər və mərhəmət alması üçün dua edə bilər. Məhz ona görə, Həzrət Bəhaullahın dualarında Allahın o biri dünyaya yüksələnləri bağışlaması və əfv etməsi üçün yalvarıb dua edirlər. Bundan əlavə, insanların bu dünyada Allaha ehtiyacları olduğu üçün o biri dünyada da onların Ona ehtiyacları vardır. Yaradılanlar daim möhtacdırlar, Allah isə istər bu, istərsə də o biri dünyada heç vaxt onlardan asılı deyil.”[26]**

Niyə biz vəfat edənlərin ruhu üçün dua oxumalıyıq?

______

______

______

______

______

______

# BÖLMƏ 20

Həzrət Əbdül-Bəha yazır:

**“İnsan ruhu bu müvəqqəti torpaq qalağından uçub Allahın aləminə yüksələndə pərdələr düşəcək, gerçəklər işıq üzünə çıxacaq, əvvəllər naməlum olan hər şey aydın olacaq, gizli həqiqətlər dərk ediləcək.**

**Baxın, bir varlıq ana bətni dünyasında qulaqdan kar, gözdən kor, dildən lal idi; o, istənilən qavrayışdan məhrum vəziyyətdə idi. Amma birdən qaranlıq aləmindən o, işıq dünyasına keçdi, sonra onun gözü gördü, qulağı eşitdi, dili danışdı. Eyni cür də o, fani məkandan Allahın Mələkutuna tələsəndə ruhən doğulacaq; onda onun qavrayışının gözü açılacaq, ruhunun qulağı eşidəcək və əvvəllər bilmədiyi bütün həqiqətlər açıq və aydın olacaq.”**[27]

1. Aşağıdakı boş yerləri doldurun:

   a. İnsan ruhu bu dünyanı tərk edəndə

   – pərdələr _________________,

   – gerçəklər ____________________________,

   – əvvəllər naməlum olan hər şey _________________________,

   – və gizli həqiqətlər ________________________.

   b. ______________________ dünyasında biz qulaqdan ______________, gözdən __________, dildən __________ idik.

   c. Biz bu aləmə doğulanda gözümüz _____________________, qulağımız __________________, dilimiz _______________.

   d. Eyni cür də Allahın Mələkutuna keçəndə biz ____________________________.

   e. Onda bizim ______________________ gözü _____________________, _______________ qulağı ________________, əvvəllər bilmədiyimiz bütün ________________ açıq və aydın olacaq.

2. Aşağıdakı müddəaların doğru olub-olmadığına qərar verin:

   _____ Biz ana bətni dünyasında olanda bu dünya barəsində bilirik.

   _____ Bizim ölümdən sonrakı vəziyyətimiz bu həyatda bizim üçün gizli olan bir həqiqətdir.

   _____ Ölümdən sonra qarşımızda tamamilə yeni üfüqlər açılacaqdır.

   _____ Biz öləndə yenidən doğulmaq üçün bu dünyaya qayıdırıq.

## BÖLMƏ 21

Həzrət Bəhaullah təsdiq edir:

**"İndi isə bədəndən ayrıldıqdan sonra ruhların bir-birindən xəbər tutub-tutmayacaqlarını davam etdirəcəkləri barədə sualına dair. Bil ki, Qırmızı Gəmiyə daxil olmuş və orada məskən salmış Bəha əhlinin ruhları bir-birilə əlaqədə olacaq və yaxından ünsiyyət edəcəklər, həyatları, canatmaları, məqsədləri və çalışmaları ilə bir-birinə o qədər bağlı olacaqlar ki, sanki tək bir ruhdurlar. Onlar, həqiqətən, agah, iti baxışlı və anlayışı olanlardır. Hər Şeyi Bilən və Hikmət Sahibi tərəfindən belə hökm olunmuşdur.**

**Allahın Gəmisinin sakini olan Bəha əhli hamılıqla bir-birinin hal və vəziyyətindən xəbərdardır, yaxınlıq və yoldaşlıq bağları ilə birləşmişlər. Lakin belə bir vəziyyət onların iman və davranışlarından asılı olmalıdır. Eyni dərəcə və məqama malik olanlar bir-birilərinin qabiliyyətindən, xasiyyətindən, nailiyyət və məziyyətlərindən tam agahdırlar. Fəqət, aşağı dərəcədə olanlar özlərindən yüksək mərtəbəyə malik olanların məqamını layiqincə dərk etməyə, yaxud onların məziyyətlərini qiymətləndirməyə qadir deyillər. Hər kəs sənin Rəbbindən öz payını alacaq. Xoş o kəsin halına ki, Allaha üz tutmuş və ruhu hamının hökmran Rəbbi, Qüdrətli, Həmişə Bağışlayan və Rəhmli Allaha tərəf qanad açana qədər Ona məhəbbətində sabit olmuşdur."**[28]

1. Biz bu dünyada tanıdığımız adamları o biri dünyada tanıyacağıqmı? ______________

2. O biri dünyada ruhlar arasında əlaqə nə qədər yaxın olacaqdır? __________________
   ________________________________________________________________________

3. O biri dünyada ruhlar arasında fərqlər və üstünlüklər nədən asılı olacaq? _________
   ________________________________________________________________________
   ________________________________________________________________________

4. Kimsə Allahın fəzlindən məhrum qalacaqmı? ________________________________

## BÖLMƏ 22

Həzrət Bəhaullah bizə belə nəsihət edir:

**"Ey Mənim bəndələrim! Əgər bu günlərdə və bu yer üzündə Allahın müəyyən etdiyi və aşkara çıxardığı şeylər sizin arzularınıza əks olarsa, kədərlənməyin, çünki, şübhəsiz, qarşıda nəşəli səadət, səmavi həzz günləri sizi gözləyir. Gözləriniz önündə müqəddəs və ruhani cəhətdən ehtişamlı aləmlər açılacaq. Bu dünyada və ondan sonra da O, bütün bunların faydalarından sizə bir qismət ayırıb, bir sevinc payı və bir ruzi təyin edib. Şübhəsiz, siz onların hamısına çatacaqsınız."**[29]

1. Aşağıdakılardan hansıların doğru olduğuna qərar verin:

_____ Nəsə bizim istədiyimiz kimi olmayanda biz kədərə qərq olmamalıyıq.

_____ İstər yaxşı, istər pis, hər şey Allah tərəfindən hökm olunmuşdur.

_____ Nəşəli səadət günləri bizim hamımızı gözləyir.

_____ Biz müqəddəs və ruhani cəhətdən ehtişamlı aləmləri mütləq görəcəyik.

_____ Həm bu, həm də sonrakı həyatımızda müqəddəs və ruhani cəhətdən ehtişamlı günlərin faydalarından payımızı almaq bizim qismətimizdir.

2. Bizim arzularımıza əks olan nəsə baş verəndə biz nə üçün kədərə qərq olmamalıyıq?

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

3. Həzrət Bəhaullah bu parçada bizə nə vəd edir? ______________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

## BÖLMƏ 23

Bu fəsildə siz həyatın mənası üzərində düşündünüz. Siz ruhun təbiəti, bu dünyada həyatın məqsədi, ruhani keyfiyyətləri inkişaf etdirməyin labüdlüyü, ehtişamlı və sevincli bir əbədi həyat barədə bizə verilən vəd barədə xeyli şey öyrəndiniz. Kitabın ikinci fəslində biz ikili məqsəd – özümüzün ruhani və intellektual inkişafımızın qayğısına qalmaq və cəmiyyətin transformasiyasına töhfə vermək barədə danışdıq. Burada o konsepsiyaya qayıtmaq və bu məqsədin hər iki cəhətinə diqqət yetirməyin əhəmiyyəti barədə, ruhun tərəqqisi haqqında sizin əldə etdiyiniz bəsirətlərin işığında düşünmək fürsəti var. Qrupunuzda aşağıdakı mövzularda müzakirələrin aparılması sizin düşüncələriniz üçün faydalı ola bilər.

1. *Ruhani keyfiyyətlərin inkişaf etdirilməsi*
2. *Allahın qanunlarına itaət edilməsi*
3. *İnsan nəslinin rifahına töhfə verilməsi*
4. *Xidmət yolunda irəli gedilməsi*

# İSTİNADLAR


1. 10 noyabr 1911 tarixində edilən söhbətdən, *Paris Söhbətləri: Həzrət Əbdül-Bəhanın 1911 Xitabları*-nda çap edilib (Wilmette: Bahá'í Publishing, 2006, 2016 nəşri), №. 29.12–13, s. 109.

2. 1 aprel 1946 tarixində Şövqi Əfəndinin adından yazılmış məktubdan, *Rəhbərlik Çıraqları: Bəhai İstinad Sənədi*-ndə çap edilib (Yeni Dehli: Bahá'í Publishing Trust, 1988, 2010 nəşri), №. 1820, s. 537.

3. 28 iyul 2016 tarixində Ümumdünya Ədalət Evinin adından yazılmış məktubdan.

4. Həzrət Əbdül-Bəha, *Bəzi Suallara Cavablar*, (Wilmette: Bahá'í Publishing, 2014, 2016 nəşri), №. 66.3, s. 352–53.

5. Yenə orada, №. 38.5, s. 220.

6. 9 noyabr 1911 tarixində Həzrət Əbdül-Bəhanın etdiyi söhbətdən, *Paris Söhbətləri*-ndə çap edilib. №. 28.16, s. 104.

7. 31 dekabr 1937 tarixində Şövqi Əfəndinin adından yazılmış məktubdan, *Rəhbərlik Çıraqları*-nda çap edilib, №. 680, s. 204.

8. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, (Wilmette: Bahá'í Publishing Trust, 1983, 2017 nəşri), LXXXII, hissə. 8, s. 183.

9. Həzrət Əbdül-Bəha, *Bəzi Suallara Cavablar*, №. 61.1–2, s. 334.

10. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, LXXX, hissə. 2, s. 174.

11. Yenə orada, LXXXI, hissə. 1, s. 176.

12. Yenə orada, CLXV, hissə. 1–3, s. 391–92.

13. Həzrət Bəhaullah, *Gizli Kəlamlar* (Wilmette: Bahá'í Publishing Trust, 2003, 2012 nəşri), Ərəbcə №. 32, s. 11.

14. 6 iyul 1912 tarixində edilmiş söhbətdən, *Ümumdünya Sülhünün Elanı: Həzrət Əbdül-Bəhanın 1912-ci ildə ABŞ və Kanadaya Səfəri zamanı Çatdırdığı Söhbətlər*-də çap edilib (Wilmette: Bahá'í Publishing, 2012), s. 315–16. (səlahiyyətli tərcümə)

15. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, V, hissə. 4, s. 8.

16. Yenə orada, LXXXII, hissə. 1, s. 179–80.

17. Yenə orada, CLIII, hissə. 6, s. 370–71.

18. Yenə orada, XXVII, hissə. 2, s. 72–73.

19. Yenə orada, XXVII, hissə. 3, s. 73.

20. Yenə orada, XXI, hissə. 1, s. 54–55.

21. Yenə orada, LXXXI, hissə. 1, s. 177.

22. Yenə orada, CXXII, hissə. 1, s. 293–94.

23. Yenə orada, LXXXII, hissə. 7, s. 182.

24. Yenə orada, LXXXI, hissə. 1,s. 176–77.

25. Yenə orada, CXXV, hissə. 3, s. 300–1.

26. Həzrət Əbdül-Bəha, *Bəzi Suallara Cavablar*, №. 62.3, s. 340–41.

27. *Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr* (Wilmette: Bahá'í Publishing, 2010, 2015 nəşri), №. 149.3–4, s. 246–47.

28. *Həzrət Bəhaullahın Yazılarından Seçmələr*, LXXXVI, hissə. 1–2, s. 192–93.

29. Yenə orada, CLIII, hissə. 9, s. 373.